*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

**Mart 2012 (Rəbiyus-sani 1433) 02 (70)**



# Nəfsimə məktub...

Ey nəfsim! Sənə lap məəttəl qalıram! İçərisində rahatlıq olmayan bir evdə rahatlıq istəyirsən.

Fani olduğunu bildiyin dünyanın dadını çıxarmaq istəyirsən. Zövq və əyləncə istəyirsən hadisələrin aqibətinə baxmırsan.

Ey nəfs! Niyə insanların qarşısında təqvalı, saf və iffətli görünməklə məşğul olub qaranlığa bürünüb insanların ətraflarına çəkildikləri vaxt sanki səni görmürmüş kimi ALLAHa üsyan etməyə cürət edirsən.

Ey nəfs! Sənə nə olur, sanki ondan əmin olmusan kimi dünyaya güvənirsən. Əvvəlkilərin vəziyyətlərini xatırlamırsanmı? Onlar həyatlarını dünyaya hədiyyə etmişlər idilər, birdə baxdılar ki dünya onlara əcəllərini gətirmiş və nemətləri atəşə çevirmiş.

Bilmirsənmi ki, dünya hiyləçidir, məqsədləri və vəziyyətləri dəyişdirəndir. Bu halda ona necə güvənərsən? Hər hansı bir anda ölüm sənə hücum edib səni içində olduğun şeydən çıxara bilər və səni bir diyardan onun üçün hazırlanmadığın başqa bir diyara aparar. Orada sənin vəziyyətin nə olar ey nəfs!

Ey nəfs! Cənnəti istədiyini iddia edirsən amma onun üçün heç çalışmadın. Atəşdən qorxduğunu iddia edirsən amma ondan heç qaçmadın! Əgər Cənnətə girsən orada nemətləndiriləcəyini, əgər Cəhənnəmə girsən orada əzaba uğrayacağını öyrənmədinmi?

Ey nəfs! Nədən səni hər itaətə məcbur etdiyimdə tənbəlləşib məndən qaçır, yorğunluq və məşəqqəti bəhanə edir bir günah gördüyündə isə ona qaçırsan?

Ey nəfs! Mənə doğrunu söylə! Nə istəyirsən? Xoşbəxtlikmi, bədbəxtlikmi? Rifahmı, əzabmı? Ey nəfs! Sənə and içərəm ki, xoşbəxtlik və rifah ancaq ALLAHa itaətdə vardır. Bədbəxtlik və əzab isə günahlarda vardır. Mənimlə razısanmı? Səndən ümid etdiyim şey budur...

# Quranın təfsir üsulları

## ŞƏFAƏT

*(Əvvəli ötən sayımızda)*

***Qurandakı şəfaət ayələrindən nəticə almaq olar ki, Qiyamətdə şəfaət vardır, amma onun da şərtləri mövcuddur. Bu şərtlər həm şəfaət edən, həm şəfaət olunan, həm də əmələ aiddir.***

**Birinci qrup**- Şəfaəti inkar edən ayələr:

***«Və o gündən qorxun ki, heç kəs başqasının haqqını ödəyə, bir diləyi yerinə yetirə və bir əzabı dəf edə bilməyəcək və heç kimin şəfaəti qəbul olunmayacaq, nə kimdənsə (əzabdan qurtulmaq üçün) bir əvəz alınacaq və nə də onlara bir kömək göstəriləcəkdir.»*** (Bəqərə surəsi, ayə 48)

**İkinci qrup-** Yəhudilərin baxışında şəfaəti inkar edən ayələr:

***«Və heç kəsin bir başqasının əzabını dəf edə bilməyəcəyi, (əzabın yerinə) ondan bir əvəzin qəbul olunmayacağı, şəfaətin ona heç bir fayda verməyəcəyi və onlara heç bir köməyin də göstərilməyəcəyi gündən çəkinin»*** (Bəqərə surəsi, ayə 123)

Onların əqidəsi belədir ki, biz peyğəmbərlərin övladıyıq və bizim günahımızın yükü nə qədər ağır olsa da, atalarımız bizə şəfaət edəcək.

***«Yəhudi və xaçpərəstlər dedilər: «Biz Allahın oğulları və Onun sevimliləriyik». De: «Onda bəs nə üçün Allah sizə günahlarınıza görə əzab verir?» Əksinə, siz də Onun yaratdıqlarından bir bəşərsiniz. İstədiyi şəxsi (rəhmətinin tələbinə əsasən) bağışlayır və istədiyi şəxsə (ədalətinin tələbi əsasında) əzab verir. Göylərin, yerin və onların arasındakıların həqiqi sahibi Odur və qayıdış Ona tərəfdir.***

(Maidə surəsi, ayə 18)

***«Və dedilər: «Cənnətə yəhudi, ya xristiandan başqa əsla heç kəs daxil olmayacaqdır.» Bu, onların xam xəyallarıdır. De: «Əgər doğruçusunuzsa dəlil-sübutunuzu gətirin.» Bəli, özünün bütün vücudunu Allaha təslim edən kəs, yaxşı əməl sahibi olsa, onun üçün Rəbbinin yanında məqamına uyğun bir mükafat vardır. Onlar üçün (axirətdə heç) bir qorxu yoxdur və onlar qəmgin olmayacaqlar.»***

(Bəqərə surəsi, ayə 111,112)

**Üçüncü qrup**- Qiyamət günündə kafirlər qrupu üçün şəfi və şəfaətçinin olmadığı və ya şəfaətçilərin şəfaətinin onların halına fayda verməyəcəyini deyən ayələr.

***«Yoxsa onlar onun təvil və yozumundan başqa bir şey gözləyirlər? (Onlar Quranın cəza və mükafat vədlərinin Qiyamətdə eynilə gerçəkləşməsindən başqa şey gözləyirlər?) Onun təvili gələn gün onu əvvəldən unutmuş kəslər «doğrudan da Rəbbimizin peyğəmbərləri bizə həqiqəti gətirdilər (lakin biz qəbul etmədik), buna görə də, görəsən (bu gün) bizim üçün bizə şəfaət edəcək şəfaətçilər varmı, yaxud etdiklərimizdən qeyrilərini yerinə yetirməyimiz üçün (dünyaya) qaytarıla bilərikmi?» deyəcəklər. (Xeyr) onlar (həmin gün) şübhəsiz özlərini ziyana uğratmışlar və iftira etdikləri (yalandan Allaha şərik qoşduqları) şey onların gözlərindən itib.»*** (Əraf surəsi, ayə 53)

«Çünki sizi aləmlərin Rəbbi ilə bərabər tuturduq». «Bizi yalnız günahkarlar (fəsad törədən alimlər, zalım hakimlər və azğın dostlar) azdırdılar». «İndi, (bu gün) bizim nə bir şəfaət edənimiz, nə də mehriban və səmimi bir dostumuz var». (Şuəra surəsi, ayə 98-101)

**Dördüncü qrup**-Bütlərin şəfaətçi olmasını tənqid edən ayələr.

***(Müşriklər Bərzəx aləminə daxil olan kimi, həmçinin onlar Qiyamət səhnəsinə ilk dəfə qədəm qoyan zaman onlara belə xitab ediləcək:) Həqiqətən Bizim yanımıza sizi yaradılışın əvvəlində (dünyada) yaratdığımız kimi tək gəldiniz və sizə əta etdiklərimizi arxada qoydunuz. (Bizim rübubiyyətimizdə və) özünüz(ün ibadətiniz)də şəriklər güman etdiyiniz şəfaətçiləri sizinlə görmürük! Şübhəsiz, aranızdakı bağlılıqlar qırılmış və (Bizim şəriklərimiz olmalarını) güman etdiyiniz şey nəzərinizdən itmişdir».***

Ənam surəsi, ayə 94)

***«Onlar Allahın yerinə onlara nə bir zərər yetirən və nə də bir mənfəət verən şeylərə ibadət edir və «bunlar Allah yanında bizim şəfaətçilərimizdir» deyirlər. De: «Allaha nə göylərdə və nə də yerdə (guya) xəbəri olmayan bir şeydən xəbər verirsiniz?! O, şərik qoşduqları şeydən pak və ucadır».*** (Yunus surəsi, ayə 18)

***«Ondan qeyri məbudlaramı ibadət edim? Əgər Rəhman (olan Allah) mənə bir zərər və ziyan vurmaq istəsə, onların şəfaətləri məndən heç bir şeyi uzaqlaşdıra bilməz və mənə nicat verə bilməzlər».***

(Yasin surəsi, ayə 23)

**Beşinci qrup** - elə ayələrdir ki, şəfaəti Allaha məxsus bilirlər və deyirlər ki, şəfaət bütünlüklə Allaha məxsusdur.

***De: «Şübhəsiz, əgər mən də Rəbbimə qarşı itaətsizlik etsəm, böyük günün əzabından qorxaram.»***

(Ənam surəsi, ayə 15)

***«Öz dinlərini oyun-oyuncaq və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri boşla. Bu Quran vasitəsilə öyüd ver ki, məbada (axirət günü) kimsə Allahdan başqa bir başçı, yardımçı və şəfaətçisi olmayan halda kəsb etdiyinin cəzası olaraq həlakətə təslim və (İlahi) rəhmətdən naümid olsun. O, (günahlarının müqabilində) hər nə fidyə və əvəz versə, ondan qəbul olunmaz. Onlardır kəsb etdiklərinin müqabilində həlakətə təslim və (İlahi) rəhmətdən naümid olanlar! Onlar üçün küfrlərinin (və nemətlərə nankor olmalarının) cəzası olaraq qaynar sudan içki və ağrılı bir əzab vardır.»*** (Ənam surəsi, ayə 70)

De: ***«Şəfaət və vasitəçilik bütünlüklə (istər səbəb və nəticələr arasındakı icbari vasitəçiliklər, istərsə də axirət aləmindəki şəfaətlər) Allaha məxsusdur. (Çünki,) həqiqi mülkiyyət və göylərin və yerin hakimiyyəti Ona məxsusdur. (Ona görə ki, hər bir şeyin yaradılışı, qorunması, idarə edilməsi və yox edilməsi Onun əlindədir.) Sonra sizin hamınız Ona tərəf qaytarılacaqsınız.»*** (Zumər surəsi, ayə 44)

**Altıncı qrup** - elə ayələrdir ki, Allahdan qeyrisinin şəfaətini şərtlərlə də olsa şübhəsiz bir əsas kimi qəbul edirlər. Onun mühüm şərti budur ki, şəfaət Allahın izni ilə olmadan heç vaxt bir təsir etməyəcək.

***«Tək olan Allahdır ki, Ondan başqa bir məbud yoxdur! (Öz zatı ilə var olan) diri və (varlıq aləmini) bərqərar saxlayan qadir və əbədidir. Onu əsla nə mürgü tutar, nə də yuxu! (Yaradılış, qorumaq, idarə etmək və yox etmək Onun istəyindən asılı olduğu üçün) göylərdə və yerdə olanların hamısı (göylər və yer də daxil olmaqla) Ona məxsusdur. İzni olmadan Onun hüzurunda kim vasitəçilik və şəfaət (bu dünyada səbəblərlə nəticələr arasında qeyri-ixtiyari vasitəçilik, o dünyada isə əməllərin cəzasının ləğvi və savabların artırılması üçün olan ixtiyari şəfaət) edə bilər?! İnsanların qarşısında olanı da, arxalarında olanı da (dünyanın keçmiş və gələcək hadisələrini) bilir və onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şeyi bilə bilməzlər. Onun (səltənət və rübubiyyət) kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları (göyləri və yeri) qoruyub saxlamaq Onun üçün çətin və yorucu deyildir. O, çox uca və böyükdür.»***

(Bəqərə surəsi, ayə 255)

***«Həqiqətən sizin Rəbbiniz göyləri və yeri altı gün(ə bərabər olan bir müddət)də (yaxud altı gecə və gündüzdə, ya da altı mərhələdə) yaradan, sonra taxta (qüdrət və tədbir taxtına) hakim olan Allahdır. İşi (yaradılış işini) daim (səbəb-nəticə qanunu əsasında) idarə edir. (Dünyanın səbəb və nəticələri arasında) Onun izni olmadan heç bir şəfaətçi (vasitə) yoxdur. Budur Rəbbiniz olan Allah. Buna görə də Ona ibadət edin. Heç öyüd-nəsihət almırsınız?»***

(Yunus surəsi, ayə 3)

Bu ayələr qrupuna həmçinin Məryəm surəsinin 87-ci ayəsi, Taha surəsinin 109-cu ayəsi və Səba surəsinin 23-cü ayələrini misal çəkmək olar.

**Yeddinci qrup**- Qiyamət günündə şəfaət edəcək şəfaətçilərin xüsusiyyətlərini təyin edən ayələr.

***«Göylərdə neçə-neçə mələklər (var) ki, onların (bu dünyanın yaradılış işləri və o dünyanın günahkarları barəsindəki) şəfaət və vasitəçilikləri heç bir fayda verməz. (Bu) yalnız Allah (şəfaət etməsini və ya şəfaət olunmasını) istədiyi və razılıq verdiyi kəsə izn verdikdən sonra (mümkündür).»*** (Nəcm surəsi, ayə 26)

***«(Haqqın hökmdarlıq yeri və dünyanın idarə olunması fərmanlarının verilmə məkanı olan) Ərşi daşıyanlar (mələklər) və onun ətrafında olanlar Rəbblərinə sitayiş etməklə yanaşı Onu pak sifətlərlə mədh edər, Ona (öz məqamlarına məxsus) iman gətirər, (insanlardan) iman gətirmiş kəslər üçün bağışlanma diləyər (və deyər)lər: «Ey Rəbbimiz! Rəhmət və elmin hər şeyi əhatə etmişdir. Odur ki, tövbə edərək (etiqad və əməldə) Sənin yolunu gedənləri bağışla və onları Cəhənnəm əzabından qoru!»*** (Qafir surəsi, ayə7)

Apardığımız araşdırmalara əsasən deyə bilərik ki, Quran bəzi şəfaətləri qəbul edir, bəzilərini isə qəbul etmir.

**Q) Elmi kitablarda yayılmış nizamdan çıxmaq**

Quran insanı hidayət etmək üçün bəzi yerlərdə bir sualın cavabı əvəzinə başqa suala cavab verir ki, bu sualın həmin şəkildə soruşulmalı olmadığını demək istəyir.

***«Səndən (Allah yolunda) nə xərcləmələrini soruşurlar, de: «(Malın növü mühüm deyil, mühüm odur ki,) xərclədiyiniz mal ata, ana, yaxınlar, yetimlər, yoxsullar və yolda qalmışlar üçün olsun. Şübhəsiz Allah etdiyiniz hər bir yaxşı işi bilir.»*** (Bəqərə surəsi, ayə 215)

Həmçinin görürsən cümlənin tərzini bir yerdə dəyişir ki, bu dəyişmənin özü də hidayətə xidmət edir.

***«O gün ki, malın və oğulların bir faydası olmayacaq».«Yalnız (fəsadlı əqidələrdən və əxlaqdan) salamat***

***(sağlam) bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!».*** (Şuəra surəsi, ayə 88,89)

Mal və övladdan söz getdiyi halda istiqamət dəyişərək sağlam qəlbə tərəf yönəlir.

Yəni Quran vəsflərin sayılmasında həssas yerə çatanda vəsf olunmuşlardan söz açır ki, bilmək məqsədi əməllə nəticələnsin və vəsflərdən vəsf olunmuşlara çatsın.

Və (yada salın) o zaman(ı) ki, Rəbbiniz (belə) elan etdi: ***«Əgər şükr etsəniz, sizə (olan nemətləri) mütləq artıraram və əgər kafir olsanız, ya naşükürlük etsəniz, Mənim əzabım, əlbəttə çox şiddətlidir.»***

(İbrahim surəsi, ayə 7)

Bu ayədə Allah vədəsini qeyd edir, əhdini isə işarə və təkvini yolla çatdırır. Çünki vəidə yox, vədəyə xilaf çıxmaq qəbahətli sayılır.

Bütün bunlara görə Quran ayələri bir-biri ilə təfsir olunmalıdır. Və necə də olmasın ki, Quran hər bir şey üçün nurdur.

***«Və (yada sal) o gün(ü) ki, hər bir ümmətdə onlara öz (iç)lərindən (hər bir ümmət üçün onların peyğəmbərlərini, yaxud hər bir əsrin insanları üçün həmin əsrin məsumunu) şahid gətirəcəyik və səni (də) bu ümmətə (ya əsrlərin şahidlərinə) şahid gətirəcəyik. Və hər bir şeyin (elm və maariflərin) dolğun açıqlaması və aydınlaşdırıcısı və müsəlmanlar üçün başdan-başa hidayət, rəhmət və müjdə mənbəyi olan bu kitabı sənə nazil etdik.»*** (Nəhl surəsi, ayə 89)

Quran mütəşabih və möhkəm ayələrə bölündüyündən mütəşabihi möhkəmə çevirməklə mütəşabih ayənin mənası aydınlaşır.

Taha surəsinin 5-ci ayəsi və Fəcr surəsinin 22-ci ayələrinin zahiri mənasına əsasən Allahın cismi olması fikri yaradılmış və Allahın ayaqları olduğu qeyd edilmişdir.

***«Rəhman olan Allah (varlıq aləminin səltənət və hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur».***

***«Rəbbinin (təkid etdiyi əmri və cəlalının, mütləq hakimiyyətinin təcəllisi) yetişəcəyi və mələklər (Məhşər səhnəsinə enib) səf-səf gələcəyi».***

Şura surəsinin 11-ci ayəsinə nəzərən yuxarıdakı ayələrin mənası aydın olur.

***«(O,) göyləri və yeri (ilk olaraq və misli görünməmiş şəkildə) yaradandır. Sizin üçün (mələk və cinlərdən deyil) öz cinsinizdən zövcələr yaratdı və (həmçinin) dördayaqlılardan (da erkək-dişi) cütlər (yaratdı). Sizi bununla (bu evlənmək tədbiri ilə) artırır və yayır. Heç nə Onun kimi deyil və eşidən və görən Odur!»***

Həmçinin Qiyamət surəsinin 22-ci, Ənam surəsinin 103-cü ayəsini misal olaraq çəkmək olar.

***«O gün neçə – neçə üzlər şad-xürrəm olacaq!»***

***«Gözlər və onların görmə qabiliyyəti Onu dərk etməz və O, gözləri və görmələri dərk edər. O, lətif və xəbərdardır.»***

İmam Rza (ə) buyurmuşdur:




***«Kim mütəşabihi möhkəmə çevirsə müstəqim sirata doğru hidayət olundu.» Sonra buyurdu: «Bizim hədislərimizdə də mütəşabih vardır. Onları də möhkəm hədislərə çevirin. Mütəşabih hədislərin ardınca getməkdən çəkinin ki, zəlalətə düşərsiniz.»***

**D) Bildiyimiz kimi Quranın batini və zahiri vardır və batininin də batini vardır. Quranın batini də batinlə dərk olunur.**

***«Sonra (başı qırxmaq, ehramdan çıxmaq və qüsl verərək təmizlik işləri aparmaqla) öz (bədənlərinin) bulaşıq və çirklərini yox etsinlər. Və öz (boyunlarında olan) nəzirlərinə vəfa etsinlər və həmin əziz, qədim və azad evin ətrafında təvaf etsinlər!»***

Züreyh Məharibi bu ayədə «Təfəhhum»u İmam Sadiqdən (ə) İmamın görüşü kimi açıqlamışdır.

Abdullah ibn Sənan İmamın xidmətinə getmiş və həmin bu ayə haqqında soruşmuşdur.İmam(ə) buyurmuşdur: «Dırnağı tutmaq və bığı qısaltmaqdır.»

Sonra Abdullah ibn Sənan deyir: «Canım sənə fəda olsun! Səndən nəql olunur ki, buyurmuşsunuz:: «Təfəhhüm İmamın görüşüdür.»

İmam buyurur: «Züreyh də düz deyir, sən də düz deyirsən. Quranın zahiri və batini vardır.» Yəni İmamın görüşü bu ayədə ayənin batininə bağlıdır.

Sonra buyurur: « Züreyh kimilər belə məsələləri dərk edirlər.»

**8) Məsum imamların hədislərinə müraciət.**

Bu özü çox geniş mövzudur ki, bu kiçik məqalədə onu geniş izah etmək mümkün olmaz.

Məqaləni İmam Sadiqdən(ə) nəql olunan bir hədislə sona çatdırıram.

İmam Sadiqdən nəql olunmuşdur: «İzzət və cəlal sahibi olan Allahın kitabı dörd şeydən, ibarə, işarə, lətafət və həqiqətlərdən ibarətdir. İbarələr ümum üçün, işarələr xüsus üçün, lətifliklər övliyalar üçün, həqiqətlər isə peyğəmbərlər üçündür.»

***Məhəmməd Baqir Saivər***

# İDARƏ VƏ İSLAHEDİCİ AMİLLƏR

**İnsanın daxilində iki qüvvə daima mübarizədədir. O qüvvələrin biri insanı xüsusiyyətlər, o biri isə nəfsani qüvvələrdən ibarətdir. İnsanın qiyməti də məhz bu mübarizənin müsbət nəticəsindən asılıdır. Əgər bu mübarizədə insani qüvvələr qələbə çalarsa demək insan kamillik zirvəsinə çatmış olar. Bu mübarizədə qələbə çalmaq üçün insanı hidayət edən elə bir amil lazımdır ki, istər adi halda, istərsə də daxilində nəfsani qüvvələrin coşub daşdığı bir vaxtda harada olmasından asılı olmayaraq onu hidayət edərək islah etsin.**

**Bu barədə bir çox alimlər öz nəzər və fikirlərini bildirmişlər. Hər alim insan üçün bir amil söyləmiş və bu amilin insanı idarə və islah edə biləcəyini bildirmişdir. Bir neçə amildən ibarətdir ki, onların hansının insanı tam şəkildə idarə və islah olunması barədə tədqiqat aparmağa ehtiyac duyulur. Əvvəl bu amillərlə tanış olaq, sonra onların hər biri barədə geniş söhbətlərimizə davam edərik.**

**1. Ağıl**

Bəzi alimlər bildirmişlər ki, insanı idarə və islah edən amil ağıldır. Onlar qeyd etmişlər ki, əgər hər bir fərdin və ya bir cəmiyyətin ağlı (pisi yaxşıdan, xeyri şərdən, mərufu münkərdən və nuru zülmətdən seçə biləcəyi qədər) güclü olarsa, demək ağıl həmin insanı və cəmiyyəti tənzimləyə bilər.

**2. Elm**

Bəzi alimlərin nəzərinə əsasən insanı idarə və islah edən amil elmdir. Bunu söyləyən şəxslərdən birincisi və bu sözün tərəfdarı Əflatun olmuşdur. Tarixdə sonradan bir qrup alim Əflatunun bu sözünü dəstəkləmiş və bu barədə öz nəzərlərini bildirmişlər.

Əflatun demişdir ki, əgər insanda rəzil sifətlərlə fəzilətli sifətləri ayıran və rəzil sifətlərin ziyanlarını, fəzilətli sifətlərin xeyrini bildirən elm olarsa, demək o elm insanı hidayət edə bilər.

**3. Qanun**

Bəzi alimlərin nəzərinə əsasən insan qanuna riayət edərsə, o qanun onu idarə edə bilər və onu həddini aşmağa qoymaz.

**4. Əmr be-məruf və nəhy əz-münkər**

Bir sıra alimlər əmr be-məruf və nəhy əz-münkərin insanı və ya cəmiyyəti idarə və islah etmə qüdrətinə malik olduğunu vurğulamışlar. Əgər bir cəmiyyətdə insanlar bir-birini yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirərsə o cəmiyyət islah olunaraq təkamülə yetişər.

**5. İman**

Bir çox alimlər isə buyurmuşlar ki, insanı (hansı halda olmasından asılı olmayaraq) idarə və islah edən yeganə amil imandan ibarətdir. Ümumiyyətlə iman üç hissəyə bölünür.

**1. Dildə iman gətirmək.**

Alimlər dildə iman gətirməyin insana heç bir fayda vermədiyini söyləmişlər. Çünki, insanın ağılda və qəlbdə Allaha imanı olmazsa dildə iman gətirməyin ona heç bir faydası yoxdur.

**2. Ağıl vasitəsi ilə iman gətirmək.**

Bəzi alimlər buyurmuşlar ki, ağlın vasitəsilə iman gətirərsə bu iman insanı idarə və islah edə bilər. Bu iman elm vasitəsilə insan üçün hasil olur. Ağılda olan iman dəlil və sübutlardan ibarətdir və fəlsəfə elmində ona elm deyilir. Yəni dəlil və sübutlarla insana hasil olan iman elm adlanır. Məsələn; İnsan Allahın varlığı, peyğəmbərin peyğəmbərliyi, imamın imaməti və qiyamət barəsində olan elminə ağıl vasitəsi ilə iman gətirməsi

deyilir. Bunların hamısı üsuli dinə aiddir ki, bu da əqli dəlillərin vasitəsilə sübut olunur. Məsələn, nizam-intizamın sübutu əqli dəlillə öz yerini tapır və bu sübutun vasitəsilə insan başa düşür ki, bütün aləmi, nizam-intizamı, yaradan mütləq şüurludur, yəni Allahdır. Beləliklə də ona iman gətirir. İnsanda olan bu imana əqli iman, fəlsəfədə isə elm deyilir.

3. Qəlbi iman.

Fəlsəfədə bu iman mərifət adlanır. Qəlbi iman insanın qəlbinə nüfuz edən bir inamdır. Yəni insan öz qəlbində Allahın ona hakim olmasını və harada olmasından asılı olmayaraq Allahı ona nəzarət edən bir qüvvə olmasını dərk edir. Bütün alimlər bildirmişlər ki, insanın harada və ya hansı halda olmasından asılı olmayaraq onu düz yola yönəldən yeganə amil Allaha qəlbən iman və inam bəsləməsidir. İnsanın ağıl vasitəsilə ələ gətirdiyi iman onu hər yerdə və hər halda bütünlüklə idarə və islah etmək imkanına malik deyildir. Doğrudur, ağıl vasitəsilə ələ gələn iman insanı bəzi hallarda hidayət edə bilər, lakin insanın daxilində qərizələrin tüğyan etdiyi zaman insanın əqli imanı onu idarə və islah etməyə qadir olmur. Məsələn, siqaretin insan üçün ziyanlı olmasını hamı bilir və həkimlər də siqaret barədə öz mənfi nəzərlərini bildirmişlər. Lakin bəzən görünür ki, siqaretin ziyanlarını bilən həmin həkimin özü siqaret çəkir. Yaxud yanacaq doldurma məntəqəsində "Siqaret çəkmək qəti qadağandır" sözü yazılır. Lakin onu ora yazıb vuran şəxsin elə oradaca siqaret çəkdiyi müşahidə olunur. Onun öz yazdığı söz onu idarə və islah edə bilmir. O bilir ki, burada siqaret çəkmək böyük bir faciəyə səbəb ola bilər. Lakin ağıl vasitəsilə ələ gətirdiyi bu iman onu idarə və islah etməkdə aciz qalır.

Ümumiyyətlə insanı hər bir halda hidayət edən və tənzimləyən yeganə amil qəlbən insana hasil olan imandır. Ona görə də biz dualarda belə oxuyuruq: "İlahi! Mən səndən elə bir iman istəyirəm ki, həmişə mənim qəlbimdə olsun."

اِتَّقُوا مَعاصِىَ اللّٰهِ فِى الْخَلَواتِ فَاِنَّ الشّاهِدَ هُوَ الْحاكِمُ

Həzrət Əli(ə) buyurur: "Gizlində də olsa belə Allaha günah etməkdən çəkinin! Çünki, sizə şahid olan Allah Özü Qiyamət günü sizə hakim olacaq."[1]

Qəlbi iman insanı həm gizli, həm də aşkarda günahlardan qoruyub islah edə bilər. Çünki insan gizlicə günah etmək istədikdə qəlbində Allaha olan iman onu günah etməyə qoymur. Allah insanın harada və hansı halda olmasından asılı olmayaraq onun bütün əməllərini görür və ürəyindən nə keçdiyini bilir. Məsələn, sürücü yolda polisin olmamasından istifadə edib yol hərəkəti qaydalarını pozur. Əgər polis onun yanında olarsa, heç vaxt yol hərəkəti qaydalarını pozmaz. Çünki bilir ki, polis ona nəzarət edir. Əgər qaydanı pozarsa, onu cərimə edəcək.



İnsan harada olursa olsun Allahı öz daxilində ona nəzarət edən qüvvə kimi bilməlidir. Belə olduqda insan heç vaxt qayda-qanunu pozmaz və onun üçün təyin olan həddləri aşmaz.

قَالَ الصَّادِقُ(ع): اَلقَلْبُ حَرَمَ اللّٰهِ وَ لا تُسْكِنْ حَرَمَ اللّٰهِ غَيْرَاللّٰهِ

İmam Sadiq(ə) buyurur: "Qəlb Allahın evidir. Allahdan başqasının ora daxil olmasına icazə verməyin."[2]

Əgər insan Allahdan başqası üçün öz qəlbdə yer etməsə heç vaxt günah etməz və Allah onun yadından çıxmaz. Hədislərdə vardır ki, mömin (imanlı şəxs) ağır dağa bənzər, hər əsən külək, yağan yağış onu yerindən tərpədə bilməz."

Yağış dağa yağdıqda onun üzərindən qumları və xırda daşları təmizləyər, lakin dağın özünü yerindən oynada bilməz. Dağın üzərində aylarla qar olur, lakin dağ öz yerində olduğu kimi qalır. Mömin möhkəm dağa bənzər ki, heç bir şey onu imanından döndərə bilməz. Əgər insanın imanı möhkəm olarsa onu imandan döndərmək heç zaman mümkün olmaz və o, Qurandan əl götürməz.

Əbdül Məlik ibn Mərvanın Allaha əqli inamı var idi və əqli dəlillərlə Peyğəmbərin peyğəmbərliyini və məadı dərk etmişdir. O məsciddə çox ibadət etdiyinə görə və çox Quran oxuduğuna görə ona məscid göyərçini deyirdilər. Bir gün Mərvan məsciddə əyləşib Quran oxuyurdu. Bir nəfər gəlib onun vəzifəyə seçildiyi xəbərini verdikdə, o Quranı yerə qoyub dedi: "Ey Quran bu günə qədər mənimlə idin, lakin bu gündən sonra səndən ayrılmalı olacağam." Əbdül Məlik Mərvan vəzifə başında əyləşdikdən sonra hər şeyi yaddan çıxardı və İslamın böyük düşmənlərindən biri oldu. Onun Allaha qəlbən imanı olmadığından belə işlər gördü. Əgər onun Allaha qəlbən imanı olsaydı heç vaxt haqq yoldan azmazdı.

Tarixdə elə şəxsiyyətlər də olmuşdur ki, onların qəlbləri Allah məhəbbətilə dolu idi. Belə şəxsiyyətlər qiyamət gününə qədər yaşayacaq və dillər əzbəri olacaqlar. O şəxsiyyətlərdən biri İmam Əli(ə) idi.

Camaat onu özlərinə rəhbər seçmək üçün onun qapısına yığışdılar. İbn Abbas deyir: Mən evə daxil olanda Əlinin(ə) öz çarıqlarını yamadığının şahidi oldum. Dedim: Ya əmirəl-möminin camaat səni özlərinə rəhbər seçmək üçün qapıya yığışıblar. Sənsə evdə əyləşib çarıqlarını yamayırsan?

İmam Əli(ə) çarıqları cütləyib yerə qoydu və məndən soruşdu: İbn Abbas, bu çarıqlara nə qədər qiymət verərsən?

Dedim: Bu ayaqqabıların qiyməti çox azdır, onları heç bir dirhəmə də almazlar.

İmam Əli(ə) buyurdu: Ey ibn Abbas! And olsun Allaha ki, bu çarıqlar mənim üçün rəhbərlik vəzifəsindən daha da qiymətlidir. Lakin mən rəhbərliyi məzlumların haqqını zalımlardan almaq üçün qəbul edirəm.

Həzrət Əlidə(ə) olan bu iman qəlbi iman idi. Belə bir iman insanda olarsa, bu iman insanı hər bir yerdə günahlardan qoruyub saxlayar və onu hidayət edər. İmam Əli(ə) xəlifə olanda da, olmayanda da Allaha ibadət edərkən ağlamağın şiddəti nəticəsində ürəyi gedərdi. Əli(ə) Allaha yalnız Onun Özünə xatir və Ona olan məhəbbətinə görə ibadət edərdi. O Həzrət Allahla münacat edərkən belə deyərdi: "İlahi, mən Sənə Cənnətə getməyə və Cəhənnəmin əzabından nicat tapmağıma görə ibadət etmirəm. Mən yalnız Sənin özünə görə ibadət edirəm. Çünki yalnız Sən ibadətə layiqsən."

Həzrət Əli(ə) yalnız Allahın razılığı olan işləri görərdi. Həyatı boyu yalnız Allah razılığını qazanmaq üçün çalışmışdı. Yaşlı qadın su apararkən səhəngi ondan alıb kömək edər, yetimlərin başına əl çəkib onların qayğısına qalar, kasıblara əl tutar və bu kimi işlərlə Allah razılığını qazanardı. Hamı bilirdi ki, Əli(ə) harada olsa haqq da oradadır.

Həzrət Peyğəmbər(s) onun barəsində buyurmuşdu: "Əli haqq ilədir və haqq da Əli ilə."

Bir qrup müsəlmanlar Peyğəmbərin(s) hüzurunda idilər. Həzrət Peyğəmbər(s) Əlinin(ə) əlindən tutub buyurdu: "Harada olmasından asılı olmayaraq Əli(ə) Quranladır və Quran da Əli ilə ."

Həzrət Əliyə(ə) baxarkən sanki Quran ayələri gözə görünürdü. Quran ayələri o Həzrətin simasında təsəvvür olunurdu.

İmam Hüseyn(ə) Əlinin(ə) oğlu idi. O da öz işlərini yalnız Allahın razılığını və Allah dininin diri qalması üçün görərdi. İmam Hüseyn(ə) buyurdu: "Əgər Mühəmməd(s)-in dini mənim ölümümlə diri qalacaqsa, onda ey qılınclar doğrayın məni!"

Qəlbində Allaha imanı olan şəxslər öz razılığını yox, yalnız Allahın razılığı olan işlərə can atar və o işləri görərlər. Hansı işdə Allah razılığı olarsa, o işin öz mahiyyətində olmalıdır.

Məcnunun Leyliyə olan məhəbbətinə nəzər salanda görürük ki, Məcnun Leyliyə görə hər şeyi qurban verməyə hazır idi. Əgər Leyli od-alovun içində belə olsaydı Məcnun da özünü odun içinə atmağa razı idi. Çünki Məcnun Leylini ürəkdən istəyirdi. Əgər insan bir şeyi ürəkdən istəyərsə onun üçün heç bir çətinlik olmaz.

Bilal Həbəşi Allaha qəlbən iman gətirdi. Ona nə qədər əzab-əziyyət verdilərsə yenə də Allahı səsləyirdi. Çünki, o Allaha ürəkdən iman gətirmişdi.

Bu bəhsdə biz "insanı idarə və islahedici amillərlə" qısa da olsa belə tanış olduq və bildik ki, insanın qəlbində Allaha inam və iman olmazsa o biri amillər insanı tam şəkildə idarə və islah edə bilməz. Növbəti sayımızda isə biz islahedici amillərin hər biri barədə geniş bəhs edəcəyik.

(Davamı gələn sayımızda)

***Seyyid Əli Əkbər Ocaq Necat***



# QONAQ GƏLƏNDƏ RUZİSİNİ DƏ ÖZÜ İLƏ GƏTİRƏR

***İslam ictimai dindir. Bu din insanın fərdi müstəvidə inkişafına təkan verməklə yanaşı, həm də insanların qarşılıqlı münasibətlərini möhkəmləndirmək hesabına inam və etibar üzərində qurulmuş sağlam, möhkəm cəmiyyət yaratmağa çağırır. Islam dininin əsasını təşkil edən əxlaq normalarının və şəriət hökmlərinin böyük bir hissəsi də insanların yaxınlaşmasına, cəmiyyətdə sevgi və sayğı hisslərinin bərqərar olmasına yönəlib. Bu mənada qonaq qəbul etmək və qonaq getməklə bağlı tövsiyələr də Islamda mühüm yer tutur.***



Hər şeydən öncə bunu qeyd edək ki, hələ İslamdan əvvəl də ərəb cəmiyyətində qonaqla rəftar zəminində bəzi ənənələr hakim idi. Ərəblər qonağa son dərəcə böyük ehtiram bəsləyir, onu göz bəbəyi kimi hər bir təhlükədən qoruyurdular. Amma bütün bu ənənələr o zamanlar dəbdə olan qəbilə təəssübkeşliyi üzərində qurulmuşdu. Yəni hər bir ərəb hər şeydən əvvəl mənsub olduğu qəbiləni təmsil edirdi. Bu mənada öz qonağına xəyanət edən və ona lazımınca xidmət göstərməyən ərəb öz qəbiləsini rüsvay etmiş olur və hamının qınaq obyektinə çevrilirdi.

Islam dini qonağa hörməti yeni bir müstəviyə keçirdi. İslam qapıya gələn hər kəsi "Allah qonağı" adlandıraraq, qonağı Allaha xatir sevməyi və Allaha xatir əzizləməyi tövsiyə etdi. Artıq bütün milli, irqi təəssüblər kənara atılmışdı. Qonaq Allahın bəndəsi idi və onunla "bəndəni sev, Allaha xatir" prinsipi əsasında rəftar edilməli idi. Varlı ya kasıb, yaxın ya uzaq, çağırılmış ya çağırılmamış olmasına baxmayaraq, hər bir qonaq ehtirama layiq idi.

Həzrət Mühəmməd Peyğəmbər (s): "Allaha və qiyamət gününə iman gətirən hər kəs qonağa ehtiram göstərməlidir", "Qonaqsız evə mələklər girməzlər" – buyurmuşdu. İmam Əlinin (ə) kədərli göründüyü günlərin birində bunun səbəbini soruşanlara belə cavab vermişdi: "Bir həftədir ki, evimə qonaq gəlmir. Qorxuram ki, olmaya, Allah məni öz mərhəmətindən kənar edib".

Qonaq qəbul etmək insan ruhunun ən mənfi xislətlərindən sayılan simiclik hissinə qalib gəlməyə kömək edir. Həzrət Mühəmməd Peyğəmbər (s) qonağa yemək ikram edəcəyi təqdirdə kasıblayacağından qorxanlara cavab olaraq buyurmuşdur: "Bıçaq dəvənin hürgücünə hansı sürətlə batırsa, başqasına yemək ikram edən şəxsin ruzisi bundan daha artıq sürətlə ona yetişər". Xalq arasında atalar misalı kimi dolaşan "Qonaq gələndə ruzisini də özü ilə birlikdə gətirər" ifadəsinin də kökü hədisə əsaslanır. Hətta hədisin ardında Peyğəmbər (s) belə buyurur: "Qonaq gedəndə isə ev sahibinin günahlarını özü ilə aparar".

Qonaq qəbul etmək nə qədər bəyənilən əməldirsə, dəvəti qəbul edib qonaq getmək də bir o qədər savabdır. Hətta hədislərdə deyilir ki, bir kəs öz din qardaşının evinə çağırılsa, (müasir hesabla 8-10 km.) uzaqda olsa belə, dəvəti qəbul edib getməlidir; çünki bu əməl dinin bir hissəsidir. İslam müqəddəsləri mömінin mömin üzərindəki hüquqlarından danışarkən, dəvət olunduğu təqdirdə qəbul edib qonaq getməyi də bu sırada qeyd etmişlər. Yenə İslam Peyğəmbərinə mənsub olan hədislərin birində deyilir: "Qonaqlığa dəvət olunan, amma getməyən, yaxud getsə də, orada yemək yeməyən insan dəvət sahibinə qarşı zülm etmiş olur". \islam.az\

# *Əllamə Təbatəbainin islah olmaq istəyən bir gəncə cavabı*

***Mən 22 yaşlı bir gəncəm. Düşünürəm ki, təkcə siz mənim sualıma cavab verə bilərsiz?***

***Yaşadığım mühit, şərait, nəfsani istəklər, arzularım mənə qələbə çalmış, onların əsiri olmuşam. Bunlar, istedadımın tələb etdiyi - Allaha tərəf gedən yoldan saxlamağa gətirib çıxarmışlar. Sizdən istəyim budur - deyəsiniz ki, öz nəfsimin cilovunu ələ almaq üçün hansı əmələ əl atım? Hamını sehrləyən bu problemdən yaxa qurtarmaq səadətinə necə nail ola bilərəm? Xatırlatmaq istəyirəm ki, nəsihət istəmirəm. Onsuz da nəsihət istəyənlər çoxdur. Qələbə çalmaq üçün isə bir əməl lazımdır. Eşitmişik ki, sizin də Nəcəfdə təhsil aldığınız dövrdə fəlsəfəni gözəl şəkildə bilən bir ustadınız olmuşdu.***

***Diqqət olunası nöqtə budur ki, bunu qələmə alan belə "xəstəliklərin" şəfasını verilicək cavabla mümkün olmayacağını düşünür.***

***Sizin qiymətli vaxtınızı almaqdan çəkinirəm. Nə demək istədiyimi, sözümün düzgün anlaşılmasını sizin ixtiyarınızda qoyuram. Bir ata kimi məsləhət bildiyiniz tərzdə onun düzgün anlaşılması barədə mənə kömək edin. Təşəkkür edirəm.***

***Əllamə Təba-təbainin cavabı:***
***Bismillahir-rahmanir-rəhim.***

***Əs-səlamun əleykum!***

***Kağızda qeyd etdiyin hədəfə çatmaq müvəffəqiyyətinə nail olmaq üçün sənə güclü iradə lazımdır. Tövbə et. Onu (tövbəni) qoru, özünlə hesablaş. Hər gün sübh vaxtı yuxudan oyandıqda qarşılaşdığın hər bir əməldə adı uca olan Allahın razı olduğunu yerinə yetirməyə riayət et. Belə olarsa, yerinə yetirəcəyin hər bir əməlin əvvəlində məqsədin axirət xeyrini ələ gətirmək olacaq. Axirət üçün xeyirli olmayan əməli yerinə yetirməyəcəksən. Beləcə, bu hala gecə yatanadək davam edəcəksən. Yatan zaman dörd-beş dəqiqə ərzində gün boyu yerinə yetirdiyin əməlləri xəyalən bir-bir gözünün önündən keçir. Allahın razılığına görə yerinə yetirdiyin hər bir əməlin müqabilində şükür et. Bunun əksinə olan hər bir əmələ görə isə istiğfar et. Bunu mütəmadi olaraq hər gün yerinə yetir. Bu iş çətin və nəfsə acı görünsə də, xilas olmağın açarıdır.***

***Bacararsansa, yatmazdan öncə "Müsəbbihat"- "Hədid," "Həşr,""Səf,""Cümə"və "Təğabun"surələrini, bacarmadığın təqdirdə isə təkcə "Həşr"surəsini oxu. Deyilənləri iyirmi gün yeirnə yetirdikdən sonra nəticəsini məktubda mənə yaz. İnşaəllah, müvəffəqiyyətə çatacaqsınız. Vəssəlam!***

***Məhəmməd Hüseyn Təbatəbai***



**İzah:** Bəndəlikdən boyun qaçıran bəndənin tövbə etməsi vacibdir. Tez bir zamanda ilahi dərgaha qayıtmalı, Allah-taaladan bağışlanmaq istəməli, Onun əmrini yerinə yetirməyə hazır olduğunu bildirməlidir. Çoxlu dəlillər, ayə və rəvayətlər bunu təsdiqləyir. Quranda deyilir: "Tubu iləllahi cəmiən əyyuhəl-muminun". Tərcümə: "Ey möminlər! Hamılıqla Allaha tövbə edin - qayıdın!"

İmam Baqir (ə) buyurub: "Günahdan tövbə edən şəxs, günahsız kimidir."

Müşaritə (şətləşmə, öz-özüylə şərt kəsmə) odur ki, hər bir işə başlamazdan öncə insan özü ilə əhd bağlayıb şərtləşsin ki, şəriətin doğru yolundan sapmayacaq, Allah-taalanın istədiklərini öz istəklərindən önə çəkəcək, yeirnə yetirəcək. Heç bir vaxt Allahın razılığını, axirət xeyrini unutmayacaq.

Müraqibə (qorumaq-saxlamaq, riayət etmək) odur ki, bəndə bir əməli yerinə yetirərkən Allah Təalanı unutmasın, özünü Onun qarşısında görsün. Mövlanın fərmanından boyun qaçırmaması, başqa yola sapmaması, dönük çıxmaması, oyun-əyləncəyə üz qoymaması üçün nəfsin keşiyini çəksin.

**Gözünü də qırpma – bax ona, bil sən,**
**Bəlkə baxar sənə o an, görməzsən!**

Gün ərzində yeirnə yetirdiyiniz işləri bir-bir nəzərdən keçirin! Allahın razılığı uğrunda olan hər bir əmələ görə şükür edin, əks təqdirdə istiğfar edin (bağışlanmaq diləyin).

Mühasibə (hesablaşma) odur ki, insan öz vaxtını necə və nəyə sərf etdiyinin hesabını çəksin. Bir işi yerinə yetirdikdən sonra onu yerinə yetirərkən keçən fürsət və zamanı qiymətləndirsin. Onun fayda və zərərini müəyyən etmək üçün şəriət tərəzisində ölçsün. Bəyənilmiş işləri yerinə yetirməyə onu nail etdiyi üçün Allah şükür etsin, pis – günah işlərə görə bağışlanmaq diləsin.

İmam Sadiq (ə) öz əziz əcdadı Muhəmməd peyğəmbərə (s) istinad etdiyi hədisdə deyir: "Xoş o adamın halına ki, Qiyamət günü əməl dəftərində etdiyi hər günah əməlin altında bir istiğfar da olsun".

**Müsəbbihat surələri**

Quranda "səbbəhə" və ya "yusəbbihu" kəlməsi ilə başlanan beş surə vardır. Bu surələr Allah Təalaya təsbih deməklə başlayır. "Səbbih" və "Sübhan" kəlmələri ilə başlanan "İsra" və "Əla" surələri isə onların sırasına salınmır. Bir hədisdə deyilir: “İslam peyğəmbəri müsəbbihat surələrini oxumadan yatmazdı və buyurardı: "Bu surələr arasında min ayədən üstün olan bir ayə vardır". Soruşdular: “Müsəbbihat hansı surələrdir?” Buyurdu: “"Hədid", "Həşr", "Səf", "Cümə" və "Təğabun"”.

İmam Baqir (ə) buyurub: “Hər kəs müsəbbihatı yatmazdan öncə oxuyarsa, Həzrət Qaimi (ə.f.) görməmiş ölməz. Əgər ölsə, Peyğəmbərin (s) pənahında olar".

Tural Həsənli (HaqqYolu)

# HARAM YEMƏK NƏDİR?

Müqəddəs İslam dini şəxsin mülkiyyət hüququnu tanıyır və var-dövlət üçün hansısa hədd müəyyənləşdirmir. Amma sərvətin necə, hansı yolla əldə olunması şərtdir. Fiqh elmində uyğun mövzu ətraflı şəkildə araşdırılmış, saysız-hesabsız kitablar yazılmışdır.

Rəvayətlərdə və fiqh kitablarında haramxorluq “əklus-suht” təbiri ilə yad edilir. İmam Sadiqdən (ə) nəql olunmuş mötəbər rəvayətə əsasən haramxorluq kəbirə günahlardan sayılır. ("Vəsailuş-şiə", 15-ci cild, səh.331)

Qurani-məciddə də “əklus-suht” təbirindən istifadə olunmuş, haramxorluq şiddətli şəkildə məzəmmət edilmişdir: “Onların əksərini günaha, həddi aşmağa, haram mal yeməyə tələsən görərsən. Həqiqətən, pis iş görürlər. Nə üçün məsihi və yəhudi alimləri onları günah danışmaqdan və haram yeməkdən çəkindirmir?! Necə də pisdir onların gördüyü iş!” ("Maidə" surəsi, ayə 62, 63)

İnsanın qeyri-şəri yolla əldə etdiyi istənilən mal haram sayılır. Məsələn, müqəddəs İslam dini spirtli içkiləri haram sayır. Eyni zamanda spirtli içkilərin satışından əldə olunan pul haramdır və ondan istifadə etmək olmaz. Müqəddəs İslam şəriətində haram buyurulmuş yollarla əldə olunan istənilən pul və mal haramdır və ondan istifadə caiz deyil. Fiqh kitablarında “məkasibu muhərrəmə” başlığı ilə təqdim olunmuş haram qazanc yollarını nəzərdən keçirək: oğurluq, oğurlandığı bilinən malı satmaq, fırıldaqçılıq, əskik satmaq, qatqıçılıq, möhtəkirlik, qumarbazlıq, qumar alətlərinin satışı, sələmçilik, rüşvətxorluq, saxta pul kəsmək, azdırıcı kitab və jurnalların satışı, sehr-cadu, İslam düşmənlərinə silah satışı, küfrü gücləndirən istənilən bir iş, narkotik maddələrin satışı, murdar ət satışı, bütpərəstliyə aparan heykəllər düzəltmək, şərab istehsalı üçün üzüm və xurma satmaq, yırtıcı heyvanların dərisini satmaq, müftə almaq, “ariyənin” (əmanət qoyulmuş şeyin) sərfi, yetimin malını yemək, zinadan qazanmaq, kişinin həmcinsbazlıqdan qazanması, qadının həmcinsbazlıqdan qazanması, rəqqasəlikdən qazanmaq, çal-çağırdan qazanmaq, ğina oxumaqdan, ğina öyrətməkdən qazanmaq, halal işlərdə istifadəyə yararlı olmayan haram işlər üçün alətlər satmaq, şərab satmaq, şərab düzəltmək, sahibindən icazəsiz mal satmaq, sahibindən icazəsiz bir maldan istifadə etmək, şərab saxlamaq, şərab düzəltmək və şərab satmaq üçün yer icarəyə vermək, şərab daşımaq üçün gəmi və ya avtomobil icarəyə vermək, bəzi həşaratlar kimi heç bir faydası olmayan şeylər satmaq, ovda istifadə olunmayan vəhşi heyvanlar satmaq və s.

Hüseyn Kərimi Zəncani



# NİYƏ ALLAH BƏZİ ƏMƏLLƏRİN ƏVƏZİNİ BU DÜNYADA DEYİL, AXİRƏTDƏ VERƏCƏK?

Bu dünyanın sonu çatdıqdan sonra başqa bir aləmin – axirət həyatının başlayacağına inam bütün ilahi dinlərdə və əqidə məktəblərində mövcuddur. Detallardakı fərqlilikləri nəzərə almasaq, bütün inanc və ideologiya təlimləri zülmlə dolmuş dünyanın sonunda Xeyirlə Şər arasında şiddətli mübarizədən (armaggeddon) sonra canlı və cansız aləmin məhv olacağını, bundan sonra bütün insanların öz əməllərinə görə cavab verəcəyini və buna uyğun olaraq əvəz alacağını bildirir. İslam ən kamil din olduğu üçün axirət inancını da ən kamil şəkildə özündə əks etdirir. Təsadüfi deyil ki, hər bir müsəlmanın inanmalı olduğu iman əsaslarından (üsulid-din) biri məaddır. Məad (ərəb dilindən tərcüməsi «qayıdış, dönüş» deməkdir) – qiyamət günündə bütün insanların diriləcək məzardan çıxacağına, məhşər məhkəməsində mühakimə olunacağına, bundan sonra ya cənnətə, ya da cəhənnəmə aparılacağına inam deməkdir.

Lakin təəssüf ki, digər iman əsasları ilə (Allaha iman gətirmək, peyğəmbəri tanımaq və s.) ilə yanaşı, məad da bəzi insanlar tərəfindən şübhə altına alınır. Çox vaxt «bu həyatdan sonra heç nə yoxdur», «məgər kimsə o biri aləmdən qayıdıb xəbər gətiribmi» kimi düşüncələrlə məadı inkar edənlərə rast gəlirik. Əvvəla, məad əqidəsini qəbul etmək üçün heç kimin «o biri aləmdən qayıdıb xəbər gətirməsi» tələb edilmir. Dünyada elə dəyərlər, inanclar və informasiyalar var ki, onlar təcrübi (empirik) biliklə izah oluna bilməz. Çünki istər bəşəriyyətin şüur səviyyəsi, istərsə də xarici aləmdən məlumat almaq üçün istifadə etdiyimiz texnologiyalar durmadan inkişaf edir. Bu gün üçün qabaqcıl görünən elmi nəzəriyyələr və texnoloji cihazlar sabah xeyli «qocalmış» sayılır və hətta gülüş doğuracaq qədər primitiv təsir bağışlayır. Belə olan halda, hazırda bizim şüur və qavrama qabiliyyətimizin hər şeyi hesablayıb tapmaq və anlamaq üçün kifayət edəcək dərəcəyə çatdığını necə iddia edə bilərik?

Məadın mövcudluğunu həm əqli (məntiqi), həm də nəqli dəlillərlə izah etmək mümkündür. Nəqli dəlillərə gəldikdə, səmavi kitabların (Tövrat, İncil və Quran) səhifələrində rast gəldiyimiz xəbərdarlıq və müjdələr, peyğəmbərlərin hədisləri zənnimizcə kifayət edər.

Əqli dəlillər sırasında məadın vacibliyini tələb edən əsas amil – Allahın ədalətli olmasıdır. Allah hər kəsin əməllərinə uyğun olaraq əvəzini verməlidir. Əgər belə etməzsə, Onun ədalətinə və bir sözlə, Allahlığına şübhə yaranar. Əvəz isə bəzən bu dünyada verilmir və ya bir müddət gecikdirilir. Bu, heç də Allahın bacarıqsızlığından irəli gəlmir. Əməllərə görə müsbət və ya mənfi qarşılığın gecikdirilməsinin əsas səbəbləri bəzən əməllərin xüsusiyyətindən, bəzən də maddi dünyanın xarakterindən doğur. Səbəblərdən biri budur ki, əgər Allah hər kəsin mükafatını və cəzasını bu dünyada dərhal versəydi, əməllərin səmimiyyəti itərdi. Hər kəs yalnız mükafat almaq xatirinə yaxşılıq edər, yalnız cəzadan qorxduğuna görə günahdan qaçardı. Bu zaman insanın bir parça sümük almaq ümidi ilə oynayan və ya təpikdən qorxub yaxın gəlməyən köpəkdən fərqi olmazdı. Belə olduğu halda, hansı savabdan və günahdan danışmaq olar? Ümumiyyətlə, belə olan halda həyatın mənası nə olardı? Həm Allahı danan ateistlərin, həm də dindarların gen-bol bəhs etdikləri iradə azadlığı, faili-muxtarlıq anlayışları nə ilə izah edilərdi? Axı, insanın dəyəri onun öz hərəkətlərini seçmək ixtiyarındadır. İnsan mükafat və cəzanı dərhal almır və nə zamansa alacağı barədə də yalnız qeybi sübutlara sahibdir (axı, «kimsə o biri aləmdən qayıdıb xəbər gətirməyib»). Burada hər şeyi iman və iradə həll edir.

Əməllərə görə əvəzin ya qiyamət dünyasına kimi təxirə salınması, ya da bu dünyada gecikdirilməsi hər bir fərdin öz mahiyyətini tam açmasına şərait yaradır. Əgər mükafat yaxud cəza dərhal verilsəydi, əməllə əvəzin arasındakı vaxt reqlamentini Allah hansı əsasda tənzimləməli idi ki, haqsızlıq olmasın? Bəlkə insan məsələn, kiminsə həyatını ölümdən xilas etdikdən sonra peşman olub, həmin adamı yenidən ölümün ağüşuna atacaq? Yaxud kiminsə əmlakını qəsb etdikdən sonra peşman olub tövbə edəcək, həmin malı sahibinə qaytarıb halallıq istəyəcək? Və bəlkə bu hərəkətlər birinci əməldən dərhal sonra yox, illərlə, on illərlə sonra, hətta insanın həyatının son günlərində və saatlarında baş verəcək? Məgər ömrünü mömin bir insan kimi yaşayıb, son anda bütün ibadət və savablarını dəhşətli bir cinayətlə məhv etmiş adamlar tarixdə az olubmu? Və ya islah olmasına ümid duyulmayan cinayətkarların tövbə edib düz yola gəlməsi, başqalarına nümunə olacaq həyat tərzinə üz tutması barədə xəbərləri eşitməmişikmi? Allah bəzən mükafat və cəzanı axirət dünyasına saxlamaqla insana öz həyatını axıra kimi yaşamaq imkanı verir ki, etiraz etməyə bəhanə yeri qalmasın.



Burada belə bir əks-arqument irəli sürülə bilər: əgər İslam dinində deyildiyi kimi, Allah hər kəsin kafir ya mömin olduğunu bilirsə, onda mükafatı və cəzanı qiyamətə saxlamağın mənası yoxdur. Onsuz da hər şey Allaha məlumdur; ona görə də O, hər bir əməlin əvəzini dərhal verə bilər.

**Cavab:** Əvvəla, əgər Allahın hər şeyi bildiyinə inanırıqsa, deməli, Onu bütün qalan sifətləri ilə də birlikdə qəbul etməliyik. Və bu halda Onun məsləhət bildiyi hər şeyin bizim şüur səviyyəmizdən daha yüksək bir hikmətə əsaslandığını etiraf etməliyik ki, əməllərə görə əvəzin qiyamətə saxlanılması da bu qəbildəndir.

İkincisi, Allahın hər şeyi qabaqcadan bilməsi o demək deyil ki, Allah insanları həmin əməli etməyə məcbur edir. Elmlə fel fərqli anlayışlardır. Yuxarıda deyildiyi kimi, əgər əməllərdə məcburiyyət olsaydı, ümumiyyətlə, mükafat və cəzanın əhəmiyyəti olmazdı.

Deyilənləri daha yaxşı başa düşmək üçün məktəb həyatına müraciət edək. Müəllim öz şagirdlərinin əksəriyyətinin savad səviyyəsini yaxşı bilir. Bununla belə, əgər onları imtahandan qabaq qiymətləndirsə, bu zaman kim həmin qiymətin düzgünlüyünə inanar? Şagirdlər onlara qarşı haqsızlıq edildiyini söyləməzlərmi? Pis qiymət alan şagird deməzmi: «Əgər mənə imtahana kimi möhlət verilsəydi, bəlkə də bilmədiklərimi öyrənib yaxşı cavab verərdim və yüksək qiymət alardım». Əksinə, yaxşı qiymət alan şagirdin də bu üstünlüyü bütün tədris ili boyunca qoruyacağına kim zəmanət verə bilər?

Bu da aydın bir həqiqətdir ki, insanlar tərəfindən törədilən bəzi əməllərin (istər yaxşı, istərsə də pis olsun) əvəzini elə bu dünyada vermək bəzən mümkün olmur. İstər həmin əməli törədən şəxsin, istərsə də onu əhatə edən adamların şəraiti ilə bağlı bəzi məhdudiyyətlər mövcuddur ki, bu işi imkansız edir. Məsələn, bəzi müsbət əməlləri dəyərləndirmək və bəzi günahları cəzalandırmaq üçün dünyada verilə bilən ən böyük əvəz də bu əməllərlə müqayisədə az görünür. Axı, cənnətdə veriləcək mükafatların ən aşağı həddə olanı bu dünyada insanın əldə edə biləcəyi ən böyük ləzzətdən daha şirindir. Həmçinin, cəhənnəmdə günahkarlara veriləcək əzablar bu dünyanın heç bir müsibəti ilə bir sırada dura bilməz.

Bu dünyada insana verilə biləcək bəzi cəza və mükafatlar onun özündən savayı, ətrafındakılara da sirayət edə bilər; bu isə ədalətin pozulması deməkdir. Məsələn, öhdəsində azyaşlı uşaqları olan bir günahkarı Allah bu dünyada cəzalandırsa, onun əziyyətini məsum körpələr də hiss edəcəklər. Əgər ata xəstələnsə, ölsə və ya kasıblığa düçar olsa, bu, onun ailəsinin və uşaqlarının dolanışığına da mütləq təsir göstərəcək və hətta onların həyatı üçün təhlükə törədəcək. Ona görə də, Allah çox vaxt əsl cəzanı qiyamətə saxlayır. Çünki Quran ayələrindən də məlum olduğu kimi, qiyamət günündə bütün əsil-nəsəb, ailə bağlılıqları aradan götürüləcək, heç kim başqasından asılı olmayacaq və heç kəs başqasının məsuliyyətinə sahib çıxmayacaq. Eyni zamanda bilməliyik ki, günahkarlar öz əməllərinin müəyyən əvəzini bu dünyada da mütləq alırlar, çünki istənilən əməl, öz ardı ilə əvəz gətirir. Sadəcə, bəzən günaha düşən cəza o qədər ağır olur ki, bu dünyadakı cəza kifayət etmir və Allah həqiqi cəzanı axirətdə göstərir.

Axirət həyatı ilə bağlı ilk baxışda mübahisəli görünən, amma tutarlı məntiqi dəlillərə əsaslanan xeyli başqa məsələlər də vardır ki, gələcəkdə onların haqqında məlumat veriləcək.

islam.az

# QURANLA DƏRMAN

# FATİHƏ SURƏSİ



Suallar: 1."Fatihə" nə deməkdir, bu surə nə üçün "Fatihətul-kitab" adlandırılmışdır? 2. Bu surəyə nə üçün "həmd" deyirlər? 3. "Rəhman" və "Rəhim" nə deməkdir? 4. Surənin məqsədi nədir? 5. Allah-təala bu surəni özü ilə bəndələri arasında necə bölmüşdür?

Surənin mətni haqqında: "Fatihə" "Fəth" kökündən olub, mənası "açan", "başlayan" deməkdir. Quran bu surə ilə başladığından onu "Fatihətul-kitab", yəni "Allah kitabını başlayan" adlandırmışlar.

Surənin digər bir adı "həmd"dir. "Həmd" dedikdə gözəl bir işi könüllü şəkildə görmüş kəsə təşəkkür edilməsi nəzərdə tutulur. Bütün nemətlər Allah-təala tərəfindən yaradıldığından, bütün gözəlliklər Onun işi olduğundan bu surədə "həmd" Ona ünvanlanmışdır.

"İsm" kəlməsi nişanə, əlamət deməkdir. "Bismillah" yəni Allahın adı və nişanı ilə başlayıram. Burada "Bismillah" həm Quranın, həm də surənin başlanğıcıdır. Bəli, Allah-təala öz mübarək kəlamını, hidayət kitabını, eləcə də bütün surələri ("Tövbə" surəsindən başqa) həmin bu kəlmə ilə başlayır. "Əllah" "pərəstiş edilən kəs" mənasını verən "Əl-ilah" kəlməsindən düzəlmişdir. "Əllah" varlıq aləmini yaratmış həqiqi və yeganə xaliqin adıdır.

**"Rəhman" və "Rəhim"** kəlmələrinin hər ikisi rəhmət kəlməsindən götürülmüşdür. "Rəhman Allah" dedikdə böyük rəhmət sahibi, "Rəhim Allah" dedikdə daimi rəhmət sahibi nəzərdə tutulur.

Allah rəhmandır. Çünki Onun rəhməti istər müsəlman, istər kafir, bütün insanları və mövcudları əhatə edir. Allah həm də rəhimdir. Yəni Onun rəhməti sabit və davamlıdır. Onun rəhməti təkcə bu dünyaya yox, həm də axirətə aiddir. Amma axirətdəki rəhmət yalnız möminlərə aiddir.

Allah-təala Quranı və həmd surəsini *"Bismillahir-Rəhmanir-Rəhim"* kəlmələri ilə başlayır. Bu ifadələr geniş və daimi rəhmətdən danışır. Bildirilir ki, deyiləcək sözlər ümumi və daimi rəhmət sahibi tərəfindəndir. Bu kitabda hidayət axtaranlar ilahi rəhmətə üz tutmuşlar.

Bu surədə məqsəd təkcə dillə yox, bəndəliyin izharı, yardım istənilməsi ilə Allaha həmd oxunmasıdır. Allah-təala bu kəlmələrlə öz xilqətinə bəndəliyin izharı məqamında ədəb öyrədir.

Həmd surəsi ona görə **"Bismillahir-Rəhmanir-Rəhimlə"** başlayır ki, biz belə düşünək: Pərvərdigara, mən Sənin həmdinə Sənin adınla başlayıram ki, təşəkkürümdə, sitayişimdə, bəndəliyimin izharında Sənin nişanın olsun və bütün bunlar yalnız Sənə xatir olsun."

**"Əlhəmdu lillahi rəbbil-aləmin"** , yəni bütün həmdlər və sitayişlər Allah üçündür. Çünki bütün nemətlər Ondandır. Bütün gözəlliklərin və nemətlərin ilki Allahdır. Odur aləmlərin Rəbbi.

**"Ərrəhmanir-rəhim"** növbəti dəfə Allahın böyük və daimi rəhmətini təkid edir.

**"Maliki yəvmid-din"** qiyamət gününü xatırladır və həmin gündə Allahın mütləq hökm sahibi olduğunu nəzərə çatdırır.

Bu surəni oxuyan şəxs **"İyyakə nəbudu"** kəlmələrinə çatdıqda özünü Allahın hüzurunda görür. Deyilir ki, Pərvərdigara, yalnız sənə ibadət edirəm. **"İyyakə nəstəin"**deməklə insan yalnız Allahın dərgahından yardım gözləyir. Allahdan istənilir ki, ona və bütün bəndələrə itaət yolunda yardım edilsin. İnsan bu sözlərlə yalnız Allahdan kömək intizarında olduğunu bildirir.

Ancaq Allahdan istənilir ki, Allah öz bəndəsini durduğu hidayət mərhələsindən "sirate-müstəqim" yəni doğru yola daha çox yönəltsin və bu yolda möhkəmləndirsin. İlahi göstərişlərə itaətdə yardım olunmuş, Peyğəmbər (s) siddiqlər, şəhidlər və nemət verilmiş salehlərin yolu istənilir. Allahın rəhmətindən uzaq olanların, Onun qəzəbinə gələnlərin, yolunu azanların, su ardınca gəzib təşnə qalanların yolundan uzaqlıq arzu olunur.

Bu surənin digər bir adı "Ümmul-kitab", yəni "kitab anasıdır." Sanki Quranda olan bütün məfhumlar bu surədə xülasə şəkildə cəmlənmişdir.

Bir rəvayətdə nəql olunur ki, həzrət Əmirəl-möminin (ə) həzrət Peyğəmbərdən (s) belə eşitmişdir: "Allah-təala buyurdu: "Fatihətul-kitabı" Özümlə bəndələrim arasında bölmüşəm. Onun yarısı Mənim üçün, yarısı isə bəndəm üçündür. Bəndəmin istədiyini ona verərəm. "Bəndə **"Bismillahir-Rəhmanir-Rəhim"** dedikdə Allah buyurar: "Bəndəm mənim adımla başladı, onun işlərini yerinə yetirmək və əhvalını bərəkətli etmək mənim öhdəmədir." Bəndə **"Əlhəmdu lillahi rəbbil-aləmin"** dedikdə Allah-təala buyurar: "Bəndəm mənə həmd dedi və bildirdi ki, faydalandığı nemətlər mənim tərəfimdəndir, bəlalar mənim lütfüm və ehsanımla ondan uzaqlaşar. Mən sizi şahid tuturam ki, axirət nemətlərini də dünya nemətlərinə əlavə edər, axirət bəlalarını ondan uzaqlaşdıraram. Necə ki, dünya bəlalarını ondan uzaqlaşdırdım. Bəndə**"Ərrəhmanir-rəhim"** dedikdə Allah-təala buyurar: "Bəndəm şəhadət verdi ki, mən rəhman və rəhiməm. Mən də sizi şahid tuturam ki , öz nemət və rəhmətimdən onun bəhrəsini artıracaq və ona böyük nemətlərimi nəsib edəcəyəm." Bəndə, **"Maliki yəvmid-din"** dedikdə Allah-təala buyurar: "Şahid olun ki, bəndəm mənim cəza gününə hakim olduğumu etiraf etdiyi kimi, mən də onun hesabını asanlaşdırar, yaxşı işlərini qəbul edər və günahlarını bağışlayaram. Bəndə **"İyyakə nəbudu"** dedikdə Allah-təala buyurar: "Bəndəm doğru dedi və həqiqətən yalnız mənə ibadət etdi. Sizi (mələkləri) şahid tuturam ki, onun ibadəti müqabilində elə bir mükafat verərəm ki, ibadətdə ona müxalif olanlar onun halına həsəd apararlar." Bəndə **"Və iyyakə nəstəin"** dedikdə Allah-təala buyurar: "Bəndəm yalnız məndən kömək istədi və mənə sığındı. Mən də sizi şahid tuturam ki, ona işlərində kömək edəcək, çətinliyə düşdükdə hökmən onun fəryadına çatacaq və müşkülə düşdüyü zamanlarda ona əl tutacağam. Bəndə**"İhdinəs-siratəl müstəqim.."** dedikdə Allah-təala buyurar: "Bəndəmin duası qəbul olmuşdur və istəkləri yerinə yetmişdir. Onun arzularını yerinə yetirdim və istədiklərini əta etdim. Onu qorxduğu şeylərdən amanda saxladım."

1-İbn Həmzə Bətaini rəvayət edir ki, İmam Cəfər Sadiq (ə) buyurub: Allahın İsm-əzəmi (müqəddəs adları) Fatihətul-kitabda yerləşdirilmişdir. (“Səvabul-əəmal”, Şeyx Səduq səhifə 94., “Təfsir Əyyaşi” 1-ci cild səhifə 25.)




2-Nəbiyyi-Əkrəm (s) buyurub: Hər kəs Fatihətul kitab surəsini oxusa, ona Quranın üçdə ikisinin ⅔ oxunmasının savabını verərlər. Elə bil ki, hər mömin və mömínəyə sədəqə vermişdir. Yenə də bu məzmunda ayrı bir rəvayətdə az fərqlə nəql olunub. Elə bil ki, o Quranın hamısını oxumuşdur. Übəyy ibn Kəb deyir: Mən Fatihətul-kitabı Rəsuli-Əkrəm (s)-ə oxudum. Həzrət buyurdu: And olsun Allaha ki, Mənim canım onun əlindədir, Tövratda, İncildə, Zəburda, və hətta Quranın özündə bunun kimi surə yoxdur. Bu surə Ummul-kitabdır (kitabın anası) və səbu-məsanidir (yeddi ayədən ibarətdir) .Bu surə Allah və bəndə arasında bölüşdürülmüşdür və bəndə istədiyini ala bilir. Məhəmməd ibn Məsud Əyyaşi nəql edir ki, Nəbiyyi-Əkrəm (s) Cabirə buyurdu: Ey Cabir, istəyirsənmi Allah öz kitabında nazil etdiyi yaxşı surəni sənə öyrədim? Cabir dedi: Bəli atam-anam sənə fəda olsun Ya Rəsuləllah öyrət mənə. Sonra Rəsuli-Əkrəm (s) Həmd surəsi ki “Ummul-kitab” adlanır, ona öyrətdi. Sonra isə Həzrət buyurdu: Ey Cabir onun fəziləti haqqında bilmək istəyirsənmi? Dedi: Bəli atam-anam sənə qurban. Həzrət buyurdu: Bu surə ölümdən başqa hər bir dərdə şəfadır. (xərçəng, iflic, həsəd...]. İmam Sadiqdən [ə] nəql olunub ki, əgər bir kəs Həmd surəsindən şifa ala bilməsə, heç bir şey onu sağaltmaz.

Əmirəlmömínin Əli [ə] Nəbiyyi-Əkrəmdən (s) nəql edir ki, Allah mənə buyurdu: “Vələqəd atəyna səbən minəl-məsani vəl-quranil-əzim “. Ey Məhəmməd biz yeddi ayəni ki, iki dəfə sənə nazil olub, göndərdik. (Hicr surəsi 87-ci ayə.)

Həzrəti Məhəmməd (s) buyurur: Allah Həmd surəsini bütün Quranın bərabərində qərar verdi, və xüsusilə onu nazil edəndə mənə minnət qoyub buyurdu ki, Fatihətul-kitab Ərş xəzinəsinin ən qiymətli surəsidir. Allah-taala bu surəni Məhəmmədə (s) məxsus edib, ona şərafət bəxş etdi, və Həzrət Süleymandan [ə] başqalarını bunda şərik etmədi. Ancaq Süleyman Peyğəmbərə bu surədən Bismillahir-rəhmanir-rəhim nazil edildi. Necə ki, Quran Bilqeysin dilindən belə hekayət edir: Süleyman [ə] tərəfindən mənə bir məktub verdilər ki, Bağışlayan və Mehriban Allahın adı ilə başlanır. Həzrət sonra buyurdu: Hər kəs onu (həmd surəsini) oxusa, Məhəmməd (s) və onun əhli-beytilə zahirdə və batində dost və onlara iman gətirib, fərmanlarına itaət etmiş olar. Allah-taala hər bir hərfin müqabilində ona savab verər ki, onun hər biri dünyadan və onun xeyirlərindən üstün olar. Əgər bir kəs bu surə oxunanda ona qulaq versə, oxuyanın on üçdə birisinin ⅓ savabını alacaqdır. Bunları qənimət sayıb, çoxaldın, vaxtı ötüb keçməsin ki, sonra onun həsrəti qəlbinizdə qalar.

Bu surəni qırx dəfə qabdakı suya oxuyub, sonra onu xəstəyə içirin, və sədəqə də verin. Sədəqə verilən şəxsə deyin ki, (filan) xəstənin sağalması üçün dua et.

Cümə axşamı mühüm şeylərin hasil olması üçün Həmd surəsini 1011-dəfə oxuyun .(təcrübə olunub).

Əhəmiyyətli şeylərin hasil olması, bəlanın və düşmənin dəf olması üçün bu surəni xətm edin.

Şənbə günü (altıncı gün) 70-dəfə, yekşənbə günü (bazar günü) 60-dəfə, duşənbə günü (birinci gün) 50-dəfə, se şənbə günü (ikinci gün) 40-dəfə, çahar şənbə günü (üçüncü gün) 30-dəfə, pənc şənbə günü (dördüncü gün) 20-dəfə, cümə günü (beşinci gün) isə 10 dəfə Fatihə surəsini oxuyun. (təcrübə olunmuşdur).

Cümə günündən başlayıb, qırx gün, və hər gündə 41-dəfə Həmd surəsini oxusun və hər dəfə oxuyandan sonra 13-dəfə desin.

Ya mufəttihu fəttih. Ya mufərricu fərric. Ya musəbbibu səbbib. Ya musəyyiru yəssir. Ya musəhhilu səhhil. Ya mutəmmimu təmmim. Və husubullahu və neməl vəkil.

Hər kəs xalis niyyətlə bu xətmi oxusa, o qədər var-dövlətə malik olar ki, yığıb-yığışdıra bilməz. (“Minhac” səhifə 432).

Miybədinin “Kəşfül-əsrar” kitabında yazılıb ki, hər kəs bu surəni aşağıdakı tərzdə oxusa, inşaallah öz məqsədinə nail olar. Bir həftə ərzində hər gündə 111-dəfə və 111 salavat göndərməklə xətm etsin. Əlbəttə bir şərti də budur ki, yeddi gün ərzində heyvan əti yeməsin. Sonra öz məqsədinə çatmaqdan ötrü desin; “Bismillahir-rəhmanir-rəhim Əlhəmdu lillahi Rəbbil aləmin. Ərrəhmanir-rəhim. Maliki yəvmiddin . İyyakə nəbudu, və iyyakə nəstəin.- sonra Tovhid (Qul huvəllah) surəsini üç dəfə oxusun . Onun davamında “Allahummə kəma cəmətə bəynə sifatikə və əsmaikə və əfalikə, fəcməə bəyni və bəynə hacəti, bihəqqi Muhəmmədin vəalihi əcməin” duasını oxusun. Sonra isə Həmd surəsinin qalanını yəni İhdinəs-siratəl mustəqim Siratəlləzinə ənəmtə ələyhim ğəyril məğzubi ələyhim, vələzzallin “ oxusun.

Müqəddəs Ərdəbilidən nəql olunub ki, hər kəs Həmd surəsini bu iki ayə ilə on gün ərzində, gündə on bir dəfə, hamısı birlikdə 110-dəfə olmaqla hər bir böyük yaxud kiçik hacət və mətləbinin olmasından asılı olmayaraq, oxusun. Bu üslub da təcrübə olunmuşdur və hacətə çatmaq üçün daha əlverişlidir.

Deyirlər ki, qüdrətli olmaqla bərabər onu yerinə yetirməkdə acizlik qarşıya çıxar. (göz dəyməsin) Üç cümə axşamı hər gecəsində bir rükət namaz qılsın və hər rükətdə on dəfə Həmd surəsini və on bir dəfə Tovhid surəsini oxusun . Salamdan sonra (yüz) 100 dəfə salavat göndərsin.

Bir nəfər özünün yoxsulluğundan Peyğəmbərə (s) şikayət etdi. Həzrət buyurdu: Öz evinə daxil olanda salam ver və bir dəfə Həmd surəsini oxu. O kişi həzrətin buyurduğu kimi etdi; Allah-taala onun, özünün və qonşularının ruzisinə bərəkət verdi.

Əbu Süleyman nəql edir ki, Allahın Rəsulu (s) ilə kafirlərə qarşı müharibəyə getmişdim, aramızda bir kişi sər “Epilepsie” (bir növ əsəb xəstəliyidir) xəstəliyinə tutulmuşdu. Səhabələrdən birisi Fatihə surəsini onun qulağına oxudu, o ayağa qalxıb tamamilə şəfa tapdı. Bu hekayəti kainatın ağası Rəsuləllaha çatdırdılar. Həzrət buyurdu: “Hiyə ummul kitab və hiyə şifaun min kulli dain”. Yəni o (Fatihə surəsi) ummul kitabdır (Quranın anasıdır) və hər dərdə şifadır.

Həmd surəsini yetmiş dəfə oxumaq hər bir dərd üçün faydalıdır.



# 4 BÖYÜK MƏLƏK

*Mələk - dini bir termindir. Mələk - bir çox dində inanılan səmavi varlıqlara verilən addır. Mələklərin vəzifələri Allaha xidmət etməkdir. Mələklərə inamın var olduğu hər dində mələklərə fərqli baxış var.İslam dininə görə mələklərin iradələri vardır. Lakin şeytan tərəfindən müsəllət olunmadıqları üçün bu iradələrini insan kimi pis istiqamətdə istifadə edə bilmə qabiliyyətləri yoxdur. Başqa sözlə günahsız varlıqlardır.İslam dinində xüsusilə dörd böyük mələk olaraq xatırlanan dörd əsas mələk vardır. Bunlar: Cəbrayıl, Mikayıl, İsrafil və Əzrayıldır.*

*Uca Allah buyurur: "Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir". (əl-Bəqərə surəsi, 97)*

*Mələk nurdan yarandığı üçün, onun müəyyən forması yoxdur. Hətta cinsiyyəti də olmaz. İnsan kimi üzvlərdən təşkil tapmayıb. Nurun müəyyən forması olmadığı üçün, təsəvvür etmək də mümkün deyil. Nurdan yarandıqları üçün, görmək də mümkün deyil. İslam peyğəmbəri ilk dəfə Cəbraili görəndə, özündən getmişdi. Biz onları görmədiyimiz üçün və o barədə elmi dairəmiz məhdud olduğu üçün, onları insan kimi təsəvvür edirik. "Fatir" surəsinin 1-ci ayəsində Allah buyurur. Allah iki-üç və dörd qanadlı mələkləri öz elçiləri qərar vermişdir. Ayəyə əsasən, onların qanadlara malik olmasını görürük. Deməli mələyin qanadı var. Hansı mələyin yüksək pilləyə malik olması, qanadlarının çoxluğuna görə ölçülür. Mərhum Əllamə Təbə-təbai qanaddan məqsəd, onlardakı güclərə işarə olmasına ehtimal edib.*

**Cəbrail** - Cəbrail sözünün mənası Allahın qulu deməkdir. "Cirb" kəlməsi qul, "İl" kəlməsi isə Allah deməkdir. Qiyamətdə hesabları verən, vəhyə aid olan işlərə baxar. İslam dinində dörd böyük mələkdən biridir. Adının etimologiyasından da aydın olduğu kimi İslam dinində Cəbrayılın çox qüvvətli bir mələk olduğuna inanırlar. Vəzifəsi peyğəmbərlərə vəhy gətirmək, onlara Allahın əmr və qadağalarını bildirməkdir, yəni Allahdan peyğəmbərlərə xəbər və məlumat daşıyar. İslam dininə görə inanılan bütün peyğəmbərlərə vəhy gətirən Cəbrayıldı.

Ən böyük mələk olan Cəbrail, yeddi cəhətə görə insan olmaq istəyib. Camaat namazına görə, alimlərin məclisində iştirak etmək üçün, iki küslünü barışdırmaq üçün, yetimə nəvaziş etmək üçün, xəstənin görüşünə getmək üçün, cənazədə iştirak etmək üçün, həccdə hacılara su paylamaq üçün.

Bu yeddi əməlin savabı o qədər çoxdur ki, Cəbrail kimi mələk o əməllərdəki savabı qazanmaq üçün , insan olmağı arzu edib.

**Mikail** - Mikail adının mənası Allahın qulu deməkdir. "Mik" kəlməsi qul, "İl" kəlməsi isə Allah deməkdir. İslam dinində dörd böyük mələkdən biridir. Mikailin adı Quran və sünnədə sabit olmuşdur. Bu mələyin gördüyü iş barədə İbn Kəsir (Allah ona rəhmət eləsin) buyurmuşdur: "Mikail yağış və bitkilər üçün təyin edilmiş mələkdir" (əl-Bidəyə və ən-Nihəyə 1/41). Kainatdakı təbiət hadisələrindən vəzifəlidir. Uca Allahın əmri ilə külək və buludları Rəbbinin istədiyi yerə aparır və bitkilərin yetişməsində mühüm rol oynayır.

Ruzi, ucuzluq, bahalıq, iqtisadi nizama ağalıq, hər bir maddəni hərəkətə gətirən mələkdir. Ucuzluq, bahalılıq, qıtlıq, bolluq, xoş əhval və dinclik gətirməklə vəzifəlidir. İnsanların ruzilərini çatdırmaq və Allahın iradəsinə görə təbiət hadisələrini təşkil etməklə vəzifəli mələkdir.

Mikayıl iudaistik, xristian və müsəlman ənənələrinə görə Allaha ən yaxın olan mələklərdən biridir. Bibliyada Mikayıl şeytan ilə vuruşan göy ordusunun başçısı kimi təmsil edilir. Quranda Mikayıl həmçinin Cəbrayıl ilə bərabər qeyd edilir.

**İsrafil** - "İsraf" kəliməsi qul, "İl" kəlməsi isə Allah mənasını verən bir sözdür. İsrafilin adı Quranda zikr olunmasa da hədislərdə zikr olunmuşdur. İslam dinində dörd böyük mələkdən biridir. Allahın əmriylə qiyamət günü sura (şeypur) üfürməklə vəzifələndirilmişdir. Diriltdən, 3 dəfə sur ifa edər (yəni xüsusi səs çıxarar). Birinci dəfə üfürdüyündə göylərdə və yerdə olan hər şeyin yox olacağına, ikinci dəfə üfürdüyündə isə, bütün insanların təkrar diriləcəyinə və məhşər yerində toplanmaq üzrə sövq ediləcəklərinə inanılır. Birinci surda hamı ölər, ikinci surda hamı qəbirdən qalxar, 3-cü surda isə hamı dirilib Allah qarşısında hesabat verər. Gündüz üç dəfə və gecə üç dəfə Cəhənnəmə baxıb, ağlayar.

İsrafil sura iki dəfə üfürəcək. İsrafil sura üfürəndə surdan böyük bir səs çıxacaq və yeddi qat göylərə və yerin hər tərəfinə çatacaq. Eşidənlərin hamısı yerdə



# VƏ DİGƏRLƏRİ...

olsun, göylərdə olsun öləcək. Vəsiyyətlərini belə edə bilməyəcəklər.

İsrafil əleyhissalam, "yenidən həyat vermə" hərəkətində vəzifəlidir. Rəbbimizin "həyat vermə" ilə əlaqədar əmr və iradəsini tətbiq edər. Xüsusilə bahar aylarında görülən dirilişdə "Muhyi" adının təcəllisinə vəsilə olar. Ölümdən sonrakı dirilişimizdə də yenə bu mələk vəzifəlidir.

**Əzrail** - can alan mələkdir. Hər gün hər bir ailəyə beş dəfə daxil olub, çıxar. Əzrail İslam dinində 4 böyük mələkdən biridir. Ruhları almaqla vəzifələndirilib, Quran-ı Kərimdə "Mələk-ül-mevt" yəni "Ölüm Mələyi" olaraq zikr edilmişdir. Bu böyük mələyin əmrində köməkçi mələklər də vardır...

İslam dinində canlıları öldürən, ölüləri diriIdən, sağlamları xəstə edən, xəstələri sağaldan yalnız Allahdır. Əzrail ölüm əsnasında bir səbəb, vasitədir...

İslama görə Əzrail qiyamətə qədər bütün canlıların canını almağa ya özü yada əmrindəki mələklərlə davam edər. Əzrail saleh və təmiz müsəlmanların ruhunu (canını) alarkən onlara çox gözəl şəkliylə görünüb müjdələr verdiyini və acı eşitməyəcək şəkildə ruhlarını cəsədlərindən ayırdığı bilinməkdədir.

Günahkarların canı, acı və iztirab verilərək alınar. İbrahim əleyhissəlam, Əzrail günahkarların canını almaq halındakı surətini görüncə; "Ey can alan mələk! Bir günahkar sənin bu şəklini gördükdən sonra bir şey görməsə ona kifayət edər." demişdir.İslam dinindən olmayanlar ilə mürtəd (dindən çıxmış) və pozğunların canları Əzrail ən-Naziat adındakı köməkçiləri tərəfindən alınar. Bunların canları çıxarkən budaqları ən incə sinir uclarına qədər çatan tikanlı bir çalının çəkilərək boğazından çıxarılmasından daha şiddətli ağrı çəkəcəkləri bildirilmişdir.

Əzrail, qiyamət qopduqdan sonra, bütün mələklərin də canını alacaq. Ən sonda, Allah da onun canını alacaq və Allahdan başqa heç bir canlı qalmayacaq. Daha sonra bütün canlılar dirildiləcək və hesaba ediləcəksiniz, sonunda; iman və əməllərinə görə Cənnət və ya Cəhənnəmə göndəriləcəklər...

**Münkər və Nakir** - Qəbirdə insanı sorğuya çəkən dəyişik görünüşlü mələklərdir. Bu sorğu nəticəsinə görə insanın qəbir həyatını yaxşımı və ya pismi keçirəcəyi təyin olunar.

Qəbir aləmində bizi iki mələk qarşılayar: Münkər və Nakir. Bir yanaşmaya görə "münkər və nakir" bir mələk növünün adıdır ki, hər adamın qəbirinə bunlardan ikisi göndərilər. İmana və ibadətə dair suallar soruşarlar. Veriləcək cavaba görə qəbir əzabı və ya səadəti başlar. Həyatı, iman dairəsində istiqamətlə keçmiş bir insan üçün, bu iki mələk qəbirdə "nurani bir yoldaş"dırlar. Onu qəbrin təkliyindən və dəhşətindən qurtarar, fərahlandırarlar.

**Kiramən və Katibin** - Hər insanın sağ və sol çiynində oturub, etdiyi yaxşı və pis işləri yazarlar. Kiramən və Katibin insanın ağlından keçən pis işləri həyata keçirmədiyi müddətcə yazmazlar. Yaxşı işlərini isə niyyət anında dərhal yaxşılıq xanasına yazarlar.Qoruma mələkləri adıyla da bilinirlər.

**Məlik** - Cəhənnəmin gözətçisi. Məlik Cəhənnəmi mühafizə edən mələklərin rəhbəridir. Yeddi cəhənnəmin mühafizəçisidir. Məlik pis mələk deyildir. "Onlar cəhənnəmdə ağlayacaqlar, Məlikə yalvaracaqlar." “Onun üzərində on doqquz (gözətçi mələk) vardır. Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik və onların sayını (on doqquza) qaldırdıq ki, (bu) kafirlər üçün ancaq bir sınaq olsun, özlərinə Kitab verilənlər yəqinlik hasil etsinlər, iman gətirənlərin imanı artsın …” (əl-Muddəssir surəsi, 30-31)

**Rizvan** - Cənnətə görə məsuliyyət daşıyır.

**Şeytan** - Mələk deyil, "cin"-dir. Nurdan yox, oddan yaradılmşdır. Allaha üsyan etdiyi üçün cənnətdən qovulmuşdur.Qiyamət gününə qədər ona vaxt verilmişdir.

Allah hər gün 70000 mələk yaradır. Mələk, nurdan yaranıb. İncə və lətif bir məxluqdur ki, bir simadan başqa bir simaya (it və donuz simasından başqa) yəni cildə düşə bilər. Amma cin hər formaya düşə bilər. Cəbrail (ə) 12000 dəfə İslam Peyğəmbərinə (s) nazil olmuşdur. Cəmi iki dəfə isə öz mələk simasında nazil olub. Birinci dəfə miladi tarixilə 610-cu ildə Cəbəlun-Nur deyilən dağın Hərа mağarasına Həzrəti Muhəmmədə (s) Peyğəmbərlik missiyasını Allahdan gətirərkən, ikinci dəfə isə, Əbtəh adlı çöldə nazil olaraq, Allah əmri ilə 40 gün evə getməməsini bildirir. Başqa vaxtlarda isə, Mədinə şəhərində yaşayan və simaca yaraşıqlı olan Dəhyə ibn Kəlbin simasında gələrmiş. Peyğəmbərdən başqa heç kim onun Cəbrail olmasını bilməzmiş. Mələklər eləcə də İbrahim peyğəmbərə başqa bir simada, hətta peyğəmbərin tanımadığı bir simada nazil olub. Ona salam verib, Allahın ona övlad verəcəyini müjdələdilər.("Zariyat" surəsinin 25, 26 və 28-ci ayələri)

Həmçinin Cəbrail (ə) Həzrəti Məryəmə xoş qamətli bir bəşər kimi göründü. ("Məryəm", ayə 7)

# Rey ZİYARƏTİ

***Rey İranın qədim məntəqələrindən biridir. Reydəki abidələr miladdan əvvəl dördüncü minilliyə aid edilir və qədimlik baxımından iki hissəyə bölünür:***

***1. "Reye-bərrin" və ya "Reye-Ulya" (yuxarı Rey) adlanan qədim Rey. Şəhərin bu hissəsi islamdan öncə tikilmiş böyük bir hasarın arasında, Əli bulağının cənubunda yerləşirdi.***

***2. Sonuncu yüzilliklərə aid olan "Reye-zirin" və ya "Reye-sufla" (aşağı Rey) adlanan hissə. Bu hissə əvvəlki hissənin, yəni yuxarı Reyin cənub-şərqində və "Bibi-Şəhrəbanu" dağının cənubunda yerləşir. Təqribən miladdan 300 il əvvəl "Selekos", "Uruyus" adını Reyə qoydu. "Əşkanilər"in dövründə bu ad dəyişilib "Ərsakiya" və "Ərəşkiyyə" oldu.***

***Sasanilərin hakimiyyəti zamanı "Rey" adını aldı. Bu şəhərin əhalisi islam qoşunlarının şəhərə daxil olması ilə islamı qəbul etdilər. İlkin dövrlərdə onların əksəriyyəti əhli-təsənnün idi, lakin hicrətin ikinci yüzilliyinin birinci yarısında cəfəri məzhəbini qəbul etdilər. İslamın hakimiyyəti zamanı Rey Bəni Üməyyə liderlərinin sığınacağına çevrildi. Bu şəhər məzhəbi qarşıdurmalardan çox ziyan görmüşdü. 617-ci (h.q.) ildə monqolların hücumuna məruz qaldı və əhali kütləvi şəkildə qılıncdan keçirildi. Bu qırğının nəticələri aradan qalxmamış 786-cı (h.q.) ildə Teymurun qoşunu tərəfindən viranəyə çevrildi və bundan sonra Rey abadlıq üzü görmədi. Müasir Reyin yaxınlığında qədim Reyin viranələri hələ də qalmaqdadır.***

## *REYİN TARİXİ ABİDƏLƏRİ*

***Bu şəhərin qədim tarixi abidələri kimi, Əli bulağının üstündə yerləşən Əşkanilər sarayının xarabalıqlarını, Sərsərə dağı üzərində Sasanilərdən qalma daş rəsmlərini, Reyin Əminabad hissəsində yerləşən Bibi Şəhrəbanu türbəsini, Toğrul bürcünü, ibn Babəveyh türbəsini, Misgərabad dağının ətəyində yerləşən Harun ər-Rəşid zindanını, imam Həsənin (ə) övladlarından olan həzrət Əbdüləzimin (ə) hərəmini, həzrət imam Rizanın (ə) qardaşı imamzadə Həmzənin türbəsini və imam Səccadın (ə) övladlarından olan imamzadə Tahirin hərəmini misal kimi göstərmək olar.***

## *HƏZRƏT ƏBDÜLƏZİMİN (Ə)HƏYATI*

*Əbdüləzim ibn Əbdullah Həsəni (ə) ikinci imam Həsən ibn Əlinin (ə) nəslindəndir. O, pak, təqvalı bir alim, imam Cavad (ə) və imam Hadinin (ə) səhabələrindən və o iki imamın etibar etdiyi ravilərdən olmuşdur. Bu böyük imam övladının mübarək məzarı Rey şəhərində tanınmış ziyarətgahdır. Onun barəsində belə bir hədis mövcuddur: "Rey əhalisindən bir nəfər imam Hadinin (ə) hüzuruna getdi. İmam ondan soruşdu: "Haradan gəlirsən?" Dedi: "Həzrət Əbu Əbdullah Hüseynin (ə) ziyarətindən gəlirəm." İmam buyurdu: "Elə yaxınlığınızda yerləşən Əbdüləzimin qəbrini ziyarət etsəydin Hüseynin (ə) qəbrini ziyarət etmiş şəxsin savabını qazanmış olardın."*

*Həzrət Əbdüləzimdən (ə) belə nəql olunur: Həzrət Cavada (ə) ərz etdim: "Ey Rəsulallahın övladı, mənə alicənab babalarından bir hədis nəql et. İmam buyurdu: "Nə qədər ki, camaat fərqlidirlər xeyir və xoşluqla yaşayacaqlar və elə ki, hamı bir-birilə bərabər oldular məhv olacaqlar."*

*Ərz etdim: Bundan artıq buyurun! Buyurdu: "Atam babalarımdan Əmir əl-mömininin (ə) belə buyurduğunu söylədi: "Bir-birinizin sirrini bilsəniz, bir-birinizin cənazəsini dəfn etməyəcəksiniz." Dedim: "Bundan artığını buyurun!" Buyurdu: "Atam babalarımdan Əmir əl-mömininin (ə) belə buyurduğunu nəql etdi. Var-dövlətinizlə bü-*

*tün camaatı özünüzdən razı edə bilmirsinizsə, əxlaqınızla hamıya yaxşılıq edin.” Beləliklə, mən əlavə hədis istəyirdim, imam da mənə hədis nəql edirdi.*

*Nəql olunur ki, həzrət Əbdüləzim öz əqidələrini həzrət imam Hadiyə (ə) bir-bir söylədi və əqidələrinin necə olduğunu soruşdu. İmam onun bütün əqidələrini təsdiq edərək buyurdu:*

يا ابالقاسم هذا و الله دين الله الذي ارتضاه لعباده فاثبت عليه ثبتك الله بالقول الثابت في الدنيا و الاخرة

*“Ey Əbülqasim, and olsun Allaha ki, Allahın dini bəndələri üçün bəyəndiyi və razı qaldığı dindir. Elə isə bu əqidədə sabit şəkildə qal. Allah səni dünya və axirətdə sabit əqidəyə sahib etsin.”*

*Nəcaşi Bərqidən belə nəql edir: “Həzrət Əbdüləzim öz əsrinin hakimiyyəti tərəfindən təqibə məruz qaldığından Rey şəhərinə pənah aparıb Sikkət ül-Məvali küçəsində əhli-beyt tərəfdarlarının birinin zirzəmisində yaşayır və çox vaxt ibadətə məşğul olurdu. Gündüzləri oruc tutur, gecələri isə namaz qılırdı. Bəzən isə hazırda onun öz qəbrinin yanında yerləşən bir məzarı ziyarət edərək buyururdu: Bu, imam Musa ibn Cəfərin övladlarından biridir.” O cənabın Reydə məskən salması xəbəri yavaş-yavaş yayılmağa başladı və əhli-beyt tərəfdarları onu tanıdılar. Həmin ərəfədə bir nəfər şəxs həzrət Peyğəmbəri (s) yuxuda gördü. Həzrət ona belə buyurdu: “Mənim övladlarımdan birinin cəsədi Sikkət ül-Məvali küçəsindən daşınıb Əbdülcabbar ibn Əbdülvəhhabın evinin qapısı ağzında yerləşən alma ağacının yanında basdırılacaq.” Sonra o Həzrət Əbdüləzimin dəfn olunduğu yerə işarə etdi. Həmin şəxs yuxudan oyandı və həmin yeri satın almaq üçün bağ sahibinin yanına getdi. Bağ sahibi ondan bu bağı niyə aldığını soruşdu. Həmin şəxs öz yuxusunu ona danışdı. Bağ sahibi dedi: “Mən də belə bir yuxu görmüşəm və bu bağı bütövlükdə o seyyid üçün vəqf etmişəm, digər müsəlmanlar də öz ölülərini orada basdıra bilərlər.”*

*Bu hadisədən sonra həzrət Əbdüləzim xəstələndi və vəfat etdi. O cənaba qüsl vermək üçün soyundurarkən cibindən bir şəcərə tapdılar. Həmin şəcərədə öz əsl-nəsəbini bu şəkildə yazmışdı: Mən Əbutalib oğlu Əlinin oğlu Həsənin oğlu Zeydin oğlu Həsənin oğlu Əlinin oğlu Əbdullahın oğlu Əbulqasim Əbdüləziməm.*

*Sahib ibn Əbbad Ruyanidən belə bir hədis nəql edir: “Əbu Həmmad Razi deyirdi: Samirra şəhərində onuncu imam Əli ən-Nəqinin (ə) hüzuruna gedib halal-harama aid bir neçə məsələ soruşdum. Həzrət suallarıma cavab verdi və vidalaşarkən mənə buyurdu: Ey Həmmad, dini məsələlərdə müşkülün olsa, Əbdüləzim ibn Əbdullah Həsənidən soruş və mənim salamımı ona yetir.”*

***Mühəqqiq Damad “Rəvasih” kitabında yazır ki, Əbdüləzimi ziyarət etməyin fəziləti və savabı barədə çoxlu hədislər vardır və hətta hədisdə nəql olunmuşdur ki, onun qəbrini ziyarət edən kəsə behişt vacib olar.***





*Sualları Ustad Ənsariya-nın nəzərinə əsasən cavablandırmışdır*

# *Dinin siyasətlə uyğunluğu varmı?*

***CAVAB:** İlahi tərəfindən göndərilən din dünyanın sonuna qədər bəşəriyyətə səadət yolunu zəmanət verir. Bu o deməkdir ki, onun cəmiyyətin əsasını təşkil edən dövlət və quruluşa biganə yanaşması qeyri-mümkündür. İmam Rza (ə) islami dövlətin zəruriliyi haqda buyurur: "Biz tarixdə elə bir kütlə və ya millət tanımırıq ki, başçı və rəhbərsiz həyat sürmüş olsun. Şübhəsiz, insanların din və dünya işlərinin idarəsində də tədbirli rəhbərə ehtiyacı var və onları rəhbər və başçısız buraxmaq Allah-taalaya rəva deyil. Bir də ki, Öz yaratdıqlarının belə zərurətə ehtiyacı olması Ona tam məlum məsələdir. Deməli, dövlət cəmiyyəti hər hansı təcavüzə qarşı hazır edir, ümumi hüquqlarını bölüşdürür, kütləvi ibadət və namazları bərpa edir, zülmkarlığın qarşısını alır."*

**Daha geniş cavab**

İslamın qanun-qaydalarının əhatəliyi onların yalnız dövlət formasında mümkünlüyünü tələb edir. Demək olar, hakimiyyətdən kənarlaşdırıldığı surətdə onların əksəriyyəti məna kəsb etməyib, fəaliyyətdən düşür. İmam Rza (ə) cümə namazının təşkili ilə əlaqədar bir hədisdə cəmiyyətin mütəşəkkilliyi barədə buyurur: "Əgər Allah-taala insanlara imanlı, etibarlı və əmanətdar hakim müəyyən etməsəydi, din aradan gedər, ilahi qayda-qanunlar dəyişilər, bidətlər artar, dinsizlər hüdudları pozub-azaldar və beləcə şübhələr müsəlmanlar arasında rəvac tapardı."

Deməliyik ki, İslam dini öz nizamlı qanunauyğunluqları ilə elə ilkin dövrlərdən müsəlmanlar və qeyri-müsəlmanlar tərəfindən xüsusi rəğbətlə qarşılanmış, Peyğəmbərin (s) o zaman Mədinə şəhərində qurduğu dini dövlət forması çoxlarının diqqətini cəlb etmişdir. Belə ki, 1343-cü hicri-qəməri ilində Misirdə Əli Əbdürrəzzaq adlı bir yazıçının "Əl-İslam və üsulil-hikəm" kitabında Peyğəmbərin (s) yalnız bir elçi olub, heç bir hökumət işlərinə qarışmadığını iddia etdiyi zaman əhli-sünnənin əksər alimləri tərəfindən şiddətli etirazla qarşılanmış və günahkar qələmə verilmişdir. Onun kimilərinin o zaman Kamal Atatürkün Osmanlı xilafətini devirib, Türkiyədə dinsiz quruluşu bərpa etdiyi tarixlə eyni vaxta düşməsi heç də təsadüfi deyil. O zaman Misirdə də Məlik Fuadı müsəlmanların xəlifəsi kimi taxta çıxarılması gözdən yayınmamalıdır. Dinə tam zidd olan belə fikir və hadisələrin İslam dünyasında baş verməsi o zaman qərbin dinsiz-sekulyar təfəkküründən, siyasi-imperialist missiyalarından mənşələnirdi.

Əslində o şəxs, iki mühüm məsələni iddia edirmiş:

1. Peyğəmbərin (s) Mədinədə qurduğu sistem hökumət sayılmır.
2. Mədinədə baş verənlərin din ilə əlaqəsi yoxdur.

O, birinci müddəanı belə əsaslandırmışdır ki, Peyğəmbərin (s) Mədinədə apardığı quruculuq işləri bir dövləti təmsil edən ölçülərlə uyğun deyil. İkinci müddəada isə Peyğəmbər (s) və onun şənini siyasət və hökumət işlərindən qəti uzaq görür.

Onun birinci iddiasına cavab olaraq qeyd edirik ki, əgər biz o dövrün quruluşunu müəyyən bir sistemlə müqayisə etməli olsaq, o zaman tarixdəki ibtidai icma formalarından tutmuş ta böyük imperiyalara qədər hər hansı cəmiyyəti onunla uyğunlaşdırmaq çətin məsələdir. Deməli, hökuməti mənalandıran elə bir ifadə seçmək lazımdır ki, onların hamısını əhatə edə bilsin. Məsələn, belə demək olar:

"Hökumət, cəmiyyətin işlərini idarə edən bir iqtidardır."

Bu primitiv tərif, demək olar, bütün quruluş formalarını əhatə edir və qanun, məhkəmə, icra və s. orqanlara özündə yer verir. Tərifdəki "iqtidar" və ya qüdrət ifadəsi isə hökumətin əsasını müəyyənləşdirən ölçüdür.

Bu tərifə əsasən, Peyğəmbərin (s) Mədinədəki hakimiyyəti tam bir hökumət sayılır və həmin quruluş haqda bir çox kitablar yazılmışdır.

Amma Peyğəmbərin (s) hakimiyyətinin dinə əsaslanması isə neçə məsələ ilə aydın olur:

1. İslam qanunlarının əksəriyyətinin icrası dövlətsiz mümkün deyil. Məslən, cəza hökmləri, məhkəmə və ya maliyyə məsəlləri.

2. Peyğəmbər (s) özü bu işlərə bir hakim və vali kimi rəhbərlik edirmiş.

3. Bir də ki, əgər peyğəmbərlik və risalət hökumət və siyasət işləri ilə uyğun gəlmirdisə, nə üçün Peyğəmbər (ə) şəxsən vaxtını belə işlərə sərf edirdi? Bəs, bunlar onu (s) öz əsl vəzifəsindən uzaqlaşdırmırdımı? Hətta Peyğəmbər (s) yalnız dini vəzifəsini yerinə yetirirmiş kimi cavab verildiyi surətdə, o zaman dinin siyasətlə geniş əlaqələri olduğu məlum olacaq.Burada daha bir sual diqqəti cəlb edir və o da budur ki, nə üçün Peyğəmbər (s) özü şəxsən bu işlərə qarışırmış və onları məsələn, yaxın səhabələrinə tapşırmırmış?...

Bunu da qeyd edirik ki, Əbdürrəzzaq kimilərinin atdığı şübhələr müasir dövrdə daha artıq rəngarəngləşib. Belə şübhələri düzgün cavablandırmaq üçün isə onların əsl vətəni olan qərb təfəkkür tərzinə varmaq lazımdır. Bir də ki, müasir qərb fəlsəfəsi ilə tanışlıq üçün, ötəri də olsa, həmin mədəniyyətin əsasını təşkil edən xristianlığın tarixi ilə maraqlanmalıyıq.

# Dünyaya behişt vəd edən sekulyarizm nədir?

**CAVAB:** ***Müasir anlamada sekulyarizm qərbdə Makiavelli tərəfindən bünövrəsi qoyulmuş bir cərəyandır. O, kilsənin təsiri ilə inansa da ki, siyasətin məqsədi Allahın razılığını qazanmaqdır, daim belə bir sual vermişdir: "Allahı razı salacaq siyasət varmı?" Makiavelli öz sualına özünəməxsus bir cavab tapmışdır: "Allahın razılığı bəndənin razılığında olduğu üçün bəndəni razı salmaq kifayətdir." Beləcə, özündənrazı alim diqqəti Allahdan yayındırıb, insana yönəltmişdir.***

Makiavellinin nəzərincə, insanın dəyəri onun imanı ilə yox, ağlı ilə ölçülməlidir. Avropada kilsənin mühafizəkarlığı, elmə qarşı çıxması sekulyarizm üçün yol açır. Həmin vaxtadək qərbdə dövlətlərin siyasi kursunu müəyyənləşdirən kilsəni dinsiz hökumətlər sıxışdırmağa başlayır. Sekulyarizmə görə insan dini dəyərləri kənara qoyub, yalnız əqlinə və elminə güvənməlidir. Əslində insanlıq və xeyirxahlığın, mənəviyyat və əxlaqın üzərindən qara xətt çəkilirdi. İnsanın ağıl və elminin dəyər ölçüsü seçilməsi sırf cəfəngiyyat olsa da, əksər cəmiyyətlər bu mənanı dərk etməkdə aciz olmuşdur. Axı hamı bilir ki, ən ağıllı və ən elmli insan hələ ən yaxşı insan demək deyil. Ümumiyyətlə, ağıl və biliyin insanın yaxşı pisliyində təyinedici rolu yoxdur.

Sekulyarizm üç əsas xüsusiyyətə malikdir:

–Bu baxışa görə, dindarlıq fərdi bir işdir və cəmiyyətin həyatında heç bir rola malik deyil.

–Sekulyarizm allahçılığı insançılıqla (humanizm) əvəz edir və cəmiyyətdə Allahın razılığı ilə bağlı bütün çərçivələr aradan qaldırılır.

–Cəmiyyəti din mehvərindən məhrum edən bu baxış boşluğu doldurmaq üçün dil, millət, irq kimi ölçülərə üz tutur.

Sekulyarist cəmiyyətdə qanunverici və icraçı orqanlar dinsizləşdirilir, təhsildə din qadağan olunur, dini dəyərlər gerilik amil kimi tanıtdırılır.

# Dini siyasətdən ayıran sekulyarizm təfəkkürü necə yaranıb?

**CAVAB:** ***Qərbdə intibah dövründən sonra xristian-kilsə hakimiyyətinin yeni yaranan elmi-fikri cərəyanlarla çarpışdığı dövr nəhayət, dinin siyasətlə ayrı olduğu təfəkkürü meydana çıxartdı.***

***"Sekulyarizm" fikri qərb təfəkkür dünyasına mənsubdur. Bunun da əsaslı səbəbləri vardır. Hər halda ilahi ideyaları aşılamayan, adi fərdlərin istəyi əsasında təhrif olunan bir din (xristianlıq) heç vaxt bəşəriyyətin etimadını tam doğrultmayacaq.***

**Daha geniş cavab**

XV əsrin ortalarından başlayaraq Qərbdə qədim Rum və Yunan mədəniyyətinə meylli təzə bir tarixin başlanğıc illərinə təsadüf olunur. Daha sonra bu hadisələr XVI əsrin ortalarında Martin Luter kimi islahatçı dindarların vasitəsi ilə islahat dövrünə qədəm qoydu. Nəhayət, özünə çoxsaylı tərəfdar toplayan bu cərəyan XVII-XVIII əsrlərdə Qərbdə şüur və ağıla əsaslanan fikirlərə bəraət qazandıra bildi. O dövrün dindar mütəfəkkirləri də belə nəticəyə gəldilər ki, kilsə üsul-qaydaları müasir fikir və ehtiyacları ödəməyə qadir deyil. Bu fikirlər o qədər genişləndi ki, nəhayət, din yalnız insanın Allahla şəxsi rabitəsi anlamı kimi ünvan aldı və axirət aləminə də onun əsasında məna verildi. Beləliklə, din tamamilə ictimai-siyasi hüdudlardan təcrid olundu və onu siyasətdən ayıran sekulyar fəlsəfi dünyagörüşünün əsası qoyuldu.



Amma sekulyarizm fikri ilə qarşılaşanda, ümumi tərzdə deyil, məhz, Qərbin xristian-kilsə hakimiyyətinə qarşı mövqeyi haqda danışılmalıdır. Çünki düzgün dünyagörüşünü aşılamayan, təhrifə məruz qalan və hər hansı insani ehtiyacları ödəyə bilməyən din məhkumdur. Bir də ki, İsa peyğəmbərin şəriəti sonuncu din olmamış və o özü də heç vaxt özünü sonuncu peyğəmbər elan etməmişdir. Mövcud "İncil"lərdə də ondan sonra son elçini müjdələyən işarələr vardır.

Amma İslam dininin sonuncu din olaraq hər hansı təhrif və xətadan uzaq olması faktı danılmaz məsələdir və onun ideyalarında dinin siyasətdən ayrı olması haqda fikirlər də təbii olaraq rədd edilir. Bununla belə, bəzən müsəlmanlar arasında ortaya çıxan bir sıra "mütəfəkkir"lərin əks mövqeləri isə qərb-sekulyar ideyalarından mənşələnib. İslamdan xəbərsiz olan belələri elə güman edirdilər ki, bu fikirlər İslam dünyasında da dönüş və inkişaf yaradacaq. Məsələn, doktor Cabir Usfur özü Əli Əbdürrəzzaqın "Əl-İslam və üsulil-hikəm" kitabına yazdığı müqəddiməsində belə qeyd edir: "Biz Rəfaət Təhtavi, Məhəmməd Əbdüh və Əli Əbdürrəzzaq kimi şəxsiiyyətlərlə fəxr edir və onları nümunə bilirik. Çünki onlar inkişaf etmiş mədəni-ictimai quruluşun tərəfdarlarıdır.

# Kim olduğunu unutma..!

Bilal adlı bir kölə var idi. Bir gün bu kölə Sultan Mahmudun köləsi olur. Sultan, köləni gözəl xarakterinə görə çox sevir. Bu kölə Sultanın elə etibarını qazanır ki, bütün sultanlığın xəzinəsi ona etibar edilir. Bu vəziyyəti görən saray sakinləri isə çox narahat olurlar. Paxıllıqları onlara gecə rahat yatmağa imkan vermir. Bir kölənin saray xəzinədarı olmasını həzm edə bilmirlər.

Bu düşüncələr içində saray adamları Sultanın gəzdiyi, keçdiyi hər yerdə kölənin əleyhinə danışmağa başlayır və bununla da onu Sultanın gözündən salmağa çalışırlar. Bir gün Sultanın hüzurunda bir saray sakini digərinə deyir:

"Kölə Bilalın tez-tez xəzinəyə getdiyini bilirsən? Onun qızılları oğurladığına adım kimi əminəm."

Sultan qulaqlarına inanmır, bunu öz gözləri ilə görmək istəyir. Divara kiçik deşik açdırır və baş verənləri seyr etməyə başlayır. Görür ki, kölə səssizcə xəzinəyə gəlir, qapını arxadan bağlayır və sandıqlara doğru gedir.

Sandıqların birini açıb içindən boxça çıxarır. Boxçanı açır və içindən kölə olarkən geydiyi cırıq, köhnə paltarı çıxararaq aynanın qarşısına keçir.

Öz-özünə "əvvəllər bu paltarı geyindiyin günləri xatırlayırsan? Bir heç idin sən!..." - deyir.

Olsa-olsa bir satışa çıxarılan kölə idin. ALLAH sənə Sultanın əli ilə bəlkə də heç layiq olmadığın nemətləri verdi. Heç zaman haradan gəldiyini unutma! Çünki, mal-mülk insanın hafizəsini zəiflədir, unutqanlığa səbəb olur.

"İndi sən də, imkanca səndən aşağı olanlara yuxarıdan aşağı baxma. Daima xatırla Bilal, daima!" -deyib, sandığı bağlayır və səssizcə qapıya yaxınlaşır. Xəzinədən çıxarkən birdən Sultanla üz-üzə gəlir. Sultan gözlərini Bilala zilləyib dayanır, gözlərindən yaşlar axır, danışmaqda çətinlik çəkir.

Sultan Mahmud: "Bu günə qədər qızıllarımın xəzinədarı idin, amma indi...qəlbimin xəzinədarısan. Mənə mənim də qarşısında bir heç olduğum SULTANımın hüzurunda necə davranmalı olduğumu öyrətdin." - deyir.

# Günah xəstəliyinin dərmanı

Bayezid Bestami həzrətləri bir gün dəlixananın qarşısından keçir. Dəlixana xidmətçisinin toxmaqla bir şey döydüyünü görür:

- Nə edirsən?

Xidmətçi:

- Bura dəlixanadır. Dəlilərə dərman hazırlayıram.
- Mənim xəstəliyimə də bir dərman tövsiyə edərsənmi?
- Xəstəliyini söylə.
- Mənim xəstəliyim günah xəstəliyidir... Çox günah işləyirəm..
- Mən günah xəstəliyindən anlamam... Mən dəlilərə dərman hazırlayıram..

Barmaqlığının arasından danışılanları eşidən bir dəli, Bayezid Bestami həzrətlərinə:

- Gəl baba, gəl! Sənin xəstəliyinin çarəsini mən söyləyim, deyə səsləndi.

Bayezid Bestami həzrətləri, dəlinin yanına gələrək:

- De görək, mənim dərdimə çarə nədir? dedi.

Dəli bu dərmanı tövsiyə etdi:

- Tövbə kökü ilə istiğfar yarpağını qarışdır... Ürək havanında tövhid toxmağı ilə döy, insaf ələyindən keçir, göz yaşıyla yoğur, eşq sobasında bişir... Axşam-səhər bol miqdarda ye... O zaman görəcəksən sənin xəstəliyindən əsər qalmaz, dedi.

Bu gözəl dərmanı öyrənən Bayezid həzrətləri:

- Ey fani dünya ey! Demək, səni də dəli deyə bura gətirmişlər, deyib oradan ayrıldı.

Bu dərman, hələ də günah xəstəsi olanlara tövsiyə olunmağa dəyər bir dərmandır. Yəni bu düsturun hökmü hələ davam etməkdədir..

# Namaz qılan əsgər

Bir əsgər, namaz qılan digər əsgərdən soruşdu :

- Dostum, neçənci əsrdə yaşayırıq? Nə üçün özünü zəhmətə salıb hər gün 5 dəfə namaz qılırsan? Namaz qılan əsgər, tam o sırada uzaqdan görünən komandiri göstərdi :

- Nə üçün bu insan sənin yanından keçərkən özünü toplayır, salam verir və bütün əmrlərinə itaət edirsən. ‘’yat’’ desə yatır, “qalx” desə qalxırsan? O da sənin kimi iki ayağı, iki əli və bir başı olan bir insan deyilmi ? Digər əsgər cavab verdi :

- “ Bəli! O da mənim kimi bir insandı amma rütbəsi var, çiynində ulduzu var “. Namaz qılan əsgərin cavabı möhtəşəm idi :

-Ey dost ! Sən çiynində bir dənə ulduzu var deyə sənin kimi bir insana itaət edirsən bəs mən, yerdəki qumlar sayı qədər ulduzları olan və hamısını təsbeh dənəsi kimi qüdrət əliylə çevirən ALLAHa nə üçün itaət etməyim? Nə üçün namaz qılıb əmrini yerinə yetirməyim ..?

# Namaz haqqında ibrətamiz hekayə

Qiyamət qopmuşdu. Qeyri-adi bir izdiham var idi. Hər yer insanlarla dolu idi. Kimisi çaşqın-çaşqın ətrafına baxır, kimisi sağa-sola qaçır, kimiləri yerdə diz çökərək başını əllərinin arasında gizləyirdilər.

Sanki, ürəyi yerindən çıxacaqdı. Soyuq tər basmışdı. Dünyada ikən qiyamət, sorgu-sual və tərəzi haqqında çox şey eşitmişdi. Ancaq məhşər meydanındakı ürpərti, qorxunun bu qədər dəhşət verəcəyini heç vaxt düşünməmişdi. Hər kəs öz növbəsini gözləyir və növbəsi çatınca hesaba çəkilmək üçün çağrılırdı. Növbə ona gəlib çatmışdı. Onun adını çəkmişdilər. Təşviş içində sağa-sola baxır. Dodaqları titrəyə-titrəyə:

-Məni çağırdınız? — deyir.

İzdiham birdən aralanır, qarşısında bir yol açılır. İki nəfər qollarına girir. Bunlar məhşər meydanının xidmətçiləri idi. İzdihamın arasından çaşqın baxışlarla keçir. Meydanın mərkəzinə gəlirlər. Xidmətçilər yanından uzaqlaşırlar. Başı önünə əyilir... Bütün həyatı gözlərinin önündən gəlib-keçir. Öz-özünə:

— Şükürlər olsun, gözlərimi dünyaya açdığım evdə hər zaman dininə ən gözəl şəkildə əməl etməyə çalışan insanları gördüm. Atam ibadətlərinə həddindən artıq həssas yanaşır, dostları ilə dini söhbətlər təşkil edir, malını İslam yolunda xərcləyirdi. Anam da onun kimi. Mən də hər zaman onlar kimi oldum. Bəşəriyyətə xidmət etməyə çalışdım, onlara Allahdan danışdım. Namazımı qıldım, orucumu tutdum. Fərz olan nə varsa, yerinə yetirdim, haramlardan uzaq durdum. . . .

Bunları düşünərkən yanaqlarından göz yaşları süzülürdü. Öz-özünə: «Rəbbimi sevirəm, heç olmasa, sevdiyimi düşünürəm, » — deyirdi. Amma bir tərəfdən də: «Onun üçün nə etsəm, yenə azdır, bu, mənim cənnəti qazanmağıma kifayət etməz. Yeganə ümidim Allahın bağışlaması və rəhmətidir, » — deyə düşünürdü.

Hesab çox uzun çəkdi. Qorxudan muncuq-muncuq tər tökür, tir-tir titrəyirdi. Gözləri tərəzinin millərində qalmışdı. Nəticənin nə olacağını gözləyirdi. Nəhayət, oradan onu çıxardaraq əvvəl olduğu yerə gətirirlər. Hökm veriləcəkdi. Öncə adı oxundu. Artıq ayaqlarının üstündə dayana bilmirdi. Gözlərini yumub həyəcan içində hökmü gözləyirdi. Birdən məhşərdəki izdihamdan bir uğultu qopdu. Qulaqları səhvmi eşidirdi, nədir, Onun adı «cəhənnəmliklər» siyahısında oxunmuşdu. Dizləri üstə çökdü, yıxıldı. «Ola bilməz» — deyə qışqırdı. Qalxıb sağa-sola qaçmaga başladı. Hıçqıraraq: «Mən necə cəhənnəmlik ola bilərəm? Həyatım boyunca Allah yolunda qulluq edən insanlarla bir yerdə olmuşam. Onlarla bərabər insanlarla Rəbbimi tanıtmağa çalışmışam,» — deyirdi.

Göz yaşları titrəyən vücudunu islatmışdı. Məhşər xidmətçiləri qollarından tutub izdihamı yararaq onu alovları göylərə yüksələn cəhənnəmə tərəf aparmağa başladılar.

Xidmətçilərin qolları arasında çırpınırdı. Bir qurtuluş yox idimi? Bir yardım edən olmayacaqdımı? Dodaqlarından qırıq-qırıq yalvarışla qarışıq kəlmələr süzülməyə başladı: «Oruclarım… Oxuduğum Quranlar… Namazım… Heç biri xilas etməyəcəkmi? »

Ağlaya-ağlaya yalvarırdı. Alova yaxınlaşmışdılar. Başını geriyə çevirdi. Son çırpıntıları idi.

Rəsulullah (s): «Birinizin qapısının ağzından bir çay axsa və o çayda gündə beş dəfə yuyunsanız, üzərinizdə heç çirk qalarmı? Namazda belədir. Allah onun sayəsində bütün günahları silər,»- buyurmamışdımı?

Son dəfə: «Namazlarım da mı mənim dadıma çatmayacaq?»-deyə düşündü və «namazlarım...» deyə hıçqırdı.

Xidmətçilər isə onu dibi görünməyən cəhənnəm çuxurunun başına gətirdilər. Alovların istisi üzünü yandırmağa başlamışdı.

Sonuncu dəfə dönüb geriyə baxdı. Artıq gözləri də qurumuşdu. Ümidini tamam itirmişdi.

Qollarını sıxan əllərin boşaldığını hiss elədi. Qolları yanına düşdü. Xidmətçilərdən biri onu arxadan möhkəm bir şəkildə itələdi. Ayaqları yerdən üzüldü. Bədəni bir anda uçurumun dibinə yuvarlandı. Alovların içərisinə doğru süretlə düşürdü. Bir neçə metr düşmüşdü ki, bir əlin onun qolundan tutduğunu hiss etdi. Başını qaldırıb yuxarıya baxdı. Onu xilas edən uzun və ağ saqqallı nurani bir qoca idi. Qoca onu yuxarıya doğru qaldırdı. O, üst-başının tozunu təmizlədikdən sonra soruşdu

-Siz kimsiniz?

-Mən sənin namazlarınam.

-Bəs məni xilas etməyə niyə bu qədər gec gəldin? Lap son anda çatdın. Az qalmışdı alovların içinə düşəm.

Qoca acı-acı gülümsəyərək başını yellədi:

-Sən məni həmişə axıra saxlayırdın, xatırladınmı? !

Gözlərini açdığı zaman yatağında idi. Qan-tər basmışdı. Dərindən bir ah çəkdi və "Əlhəmdulillah, çox şükür ki, yuxu imiş, "-dedi. Sonra çöldən gələn səsə qulaq asdı. İşa namazının azanı oxunurdu. Ox kimi yerindən sıçradı:dəstəmaz alacaqdı. . .



# BİLAL HƏBƏŞİ



*Adı:* ***Bilal***
*Atası:* ***Rəbbah***
*Təvəllüdü:* ***Fil ilindən on il sonra***

Bilalın ata-anası qul olub. O, məhrumiyyət baxımından digər qullardan fərqlənməsə də, yaxşı xüsusiyyətlərinə görə seçilirdi. Həzrət Məhəmməd (s) peyğəmbərliyə seçildiyi vaxt Bilalın otuza yaxın yaşı vardı. Bilal Məkkəni ziyarət etdiyindən Peyğəmbərin (s) dəvəti haqqında eşidir.

Bir gecə işlərini yerinə yetirdikdən sonra fürsət tapıb Peyğəmbərin (s) görüşünə gedir. Quran ayələri və Peyğəmbərin (s) əxlaqi keyfiyyətləri Bilalın İslamı qəbul etməsinə səbəb olur. Bilal ağasının gözündən yayınaraq hər gecə gizli şəkildə İslam Peyğəmbərinin (s) söhbətlərinə qulaq asmağa gedirdi. O, bilir ki, müsəlman olmağı ona baha başa gələcək, amma həqiqətə olan sevgisi, Peyğəmbərə (s) olan bağlılığı Bilalı istənilən işgəncənin qəbuluna hazır etmişdi.

Bilalın ağası Üməyyə İslamın qatı düşmənlərindən idi. O, Bilalın Peyğəmbərin (s) dinini qəbul etməsinə heç cür inana bilmir. Bilalın müsəlman olduğunu eşitdikdə çox qəzəblənir və deyir: «Bilala elə divan tutaram ki, bir daha kimsə müsəlman olmaq fikrinə düşməz».

Adətən digər qulların gözünün odunu almaq üçün itaət etməyənlərə şəhər meydanında hamının gözü qarşısında işgəncə verilirdi. Ənənəvi olaraq, Bilal da hər kəsin gözü qarşısında cəzalandırılmalıydı. Üməyyənin göstərişilə Bilalın əl-ayağını bağlayıb qızmar günəş altında isti qumun üzərinə uzadıb, sinəsinə böyük bir daş qoyurlar. Bu daş Bilalın bədənini qaynar quma sıxaraq dərisini yandırır, parça-parça qoparır. Bilal isə öz iman qüvvəsi və iradəsilə misilsiz dözüm göstərir, işgəncələrə dözərək pıçıltılı səslə Allahı zikr edir. Üməyyənin gözlədiyinin əksinə olaraq, bir neçə gün ağır işgəncələrə məruz qalan Bilalın müqaviməti və səbri onun İslama meylini nəinki azaltmır əksinə, müsəlmanların müqavimət və möhkəmliliyini artırır. Həzrət Peyğəmbər (s) Bilalın işgəncələrindən narahat olaraq onu Üməyyədən almaq istəyir. Əvvəlcə öz qulunu satmaqdan imtina edən Üməyyə sonda Bilalın müqavimətindən cana gəlir. Bilaldan qul kimi istifadə etmək mümkünsüz olmuşdu, onu öldürmək isə Üməyyəni alçalda bilərdi. Odur ki, Üməyyə Bilalı Peyğəmbərə (s) satmağa razılıq verir. Beləliklə, həbəşistanlı Bilalın adı qullar siyahısından silinir.

Bilal sağaldıqdan sonra dini təbliğə başlayır, Allah yolunda misilsiz fədakarlıqlar göstərir. Peyğəmbər (s) müsəlmanların Mədinəyə hicrətinin ilk günlərində xalqı camaat namazı



və zəruri yığıncaqlardan xəbərdar etmək üçün azan verilməsi göstərişini verir. Beləcə, Bilal İslamda ilk müəzzin (azan verən) olmaq iftixarını qazanır. O dövrdə Bilaldan daha gözəl səsi olanlar az deyildi, lakin onu bu səviyyəyə məhz imanı və paklığı ucaltdı.

Bilal vaxtı dəqiq müəyyənləşdirməyi bacaran azançı idi. Peyğəmbər (s) buyururdu: «Oruclarınızı Bilalın azanı ilə başlayıb, onun adı ilə də sona çatdırın. O çox dəqiqdir».

Bilal qardaşı ilə Yəmənə səfər zamanı evlənmək qərarına gəlir. Elçilik zamanı o, özünü belə təqdim edi: «Mən Bilalam, bu isə mənim qardaşımdır. Hər ikimiz həbəş qulları olmuşuq. Yolumuzu azmışdıq, Allah bizi hidayət etdi. Qul idik, Allah bizi azadlığa çıxardı. Qızlarınızı bizə versəniz, Allaha həmd olsun. Əgər verməsəniz - Allah böyükdür».

Qız adamları Bilala qəti cavab verməzdən öncə Peyğəmbərin (s) yanına gələrək onun rəyini öyrənmək istəyirlər. Peyğəmbər (s) buyurur: «Ondan yaxşı kimi istəyirsiniz? Bilal behişt əhlindən olan bir insandır».

Bilalın işi təkcə azan vermək deyildi. O, savaş qəhrəmanı, əsl hərb adamı idi. Bilal demək olar ki, bütün döyüşlərdə iştirak edirdi.

Mədinədə Bilal həm də Peyğəmbərin (s) xəzinədarı olur. Peyğəmbərimizin (s) ixtiyarında qoyulan malların xumsu, döyüş qənimətləri və digər pullar Bilala tapşırılır. O heç vaxt möhtacları rədd etmir. Hətta xəzinədə pul olmadıqda belə, başqalarından borc alıb fəqirləri yola salır.

Məkkənin fəthi zamanı Allah Rəsulu (s) Bilala buyurur: «Kəbəyə qalx və azan ver». Müşriklər Bilalın cürətindən heyrətə gəlirlər. Dünənə qədər təhqir olunan qara qul bu gün Peyğəmbər (s) tərəfindən nümayəndə seçilərək Kəbənin üstündən boylanır və azan verirdi.

Peyğəmbərin (s) vəfatından sonra Bilal azan vermir. Ümmət Bilalın könül oxşayan tövhid avazının intizarında qalır. Bilal ömrünün sonunadək Peyğəmbərin (s) azançısı olmaq iftixarını heç nəyə dəyişmir.

İmam Sadiq (ə) buyurur: «Allah Bilala rəhmət eləsin! O, Əhli-beytin (ə) dostu və saleh bir bəndə idi. Peyğəmbərdən (s) sonra Bilal kimsə üçün azan vermədi».

Sonralar Bilal Şama (indiki Suriya) köçərək orada yaşamağa başlayır. Hər il Mədinəyə gəlib Həzrət Məhəmmədin (s) qəbrini ziyarət edir, Peyğəmbər (s) Əhli-beyti (ə) ilə görüşür.

Hicri 19-cu ildə 63 yaşında Bilal taun xəstəliyindən dünyasını dəyişir və Dəməşq yaxınlığında «Babus-səğir» adlı yerdə dəfn olunur.

Peyğəmbər (s) buyurur: «Hər kəs imanla Allaha yaxınlıq məqsədi ilə bir namazın azanını desə, Allah onun keçmiş günahlarını bağışlayar, gələcək xətalardan qoruyar, behiştdə şəhidlərlə qonşu edər».



*Bilal Həbəşinin məzarı - Suriya*



# Nəsirəddin TUSİ





***Nəsirəddin Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusi 1201-ci il şənbə günü 17 fevralda (11 cəmadiul-əvvəl 597-ci il) Tus şəhərində anadan olmuşdur.Bəzi mənbələrdə qeyd edilir ki, onun əsli Zəncanla Həmədan arasında yerləşən Savə şəhərindəndir, Tusda doğulduğu üçün Tusi nisbəsi ilə tanınmışdır.***

İlk təhsilini atasından almış, sonra Həmədan və Tus şəhərlərində dövrünün tanınmış alimlərinin – İbn Sina və Bəhmənyarın davamçılarının yanında təhsil görmüşdür.

Aldığı hərtərəfli və dərin biliklər Məhəmmədi az bir vaxtda elmi mühitdə məşhurlaşdırır. Hələ gənc yaşlarından etibarən o, bir sıra hökmdarların diqqətini cəlb edir. Otuz yaşında ikən Kuhistan ismaililərinin rəhbəri Nəsirəddin Möhtəşəm onu sarayına qonaq çağırır və gənc alimdən əxlaq barədə kitab yazmasını xahiş edir. 1235-ci ildə Nəsirəddin Tusi sonralar ona dünya şöhrəti gətirən və bir çox dillərə tərcümə olunan məşhur "Əxlaqi Nasiri" əsərini tamamlayır. Lakin bir müddət sonra müəyyən narazılığa görə Tusi həbs olunaraq, ismaililərin əlçatmaz dağ zirvələrində yerləşən "Ələmut" ("Qartal yuvası") qalasına aparılmışdır. O, burada sürgün həyatı keçirmişdir. Nəsirəddin Tusi ismaililərin yanında keçirdiyi 12 ildən bir qədər artıq müddətdə dözülməz mənəvi sıxıntılarına baxmayaraq, qaladakı zəngin kitabxanadan istifadə edərək elmi yaradıcılıqla məşğul olmuşdur. Alim 1242-ci ildə tamamladıqı məşhur "Şərh əl-İşarat" (Əbu Əli Sinanın "İşarat" adlı fəlsəfi risaləsinə şərh) əsərinin sonunda yazırdı: "Mən bu kitabın əksər fəsillərini olmazın dərəcədə ağır bir şəraitdə yazdım. Ürək bundan artıq sıxıntı çəkə bilməzdi". 1253-cü ildə Çingiz xanın nəvəsi Hülaku xanın Yaxın Şərqə yürüşü başlamışdır. Onun qoşunları 1256-cı ildə fətholunmaz sayılan "Ələmut" qalasını tutmuş, İsmaililər dövlətinin hakimiyyətinə son qoymuş, Nəsirəddini və digər alim məhbusları azad etmişdi. Nəsirəddin Tusi Hülaku xanın şəxsi məsləhətçisi təyin olunmuşdu.

Hülaku xan 1258-ci ildə Bağdadı fəth edərək, Abbasilər sülaləsinin hakimiyyətinə son qoymuşdu. Hülaku xan dövlətinin mərkəzini 1260-cı ildə Azərbaycana salır. İlxanilər adlanan bu yeni dövlətin başçıları "ilxan"lar (el xanları) idi. Hülaku xan öz dövlətinin paytaxtı kimi əvvəlcə Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Marağanı, sonra isə Təbrizi seçir. Elə həmin vaxt Nəsirəddin Marağa rəsədxanasının tikintisinə başlayır.

Nəsirəddin Tusi elmin müxtəlif sahələri ilə dərindən maraqlanmışdı. Onun qələmindən çıxan yüzdən artıq ciddi əsər elmin - astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və digər sahələrinə həsr olunmuşdu. Bununla belə Nəsirəddinin yaradıcılığından astronomiya və riyaziyyat üzrə tədqiqatlar xüsusi yer tutur. Tusi bu sahələrdə aparılmış iyirmidən artıq uğurlu araşdırmanın müəllifidir. Riyaziyyata həsr etdiyi əsərlər yalnız ərəbcə, astronomiya üzrə tədqiqatları isə həm fars, həm də ərəb dillərində yazılmışdır.

Riyaziyyatçı alimin ən məşhur əsərləri arasında "Şəklül-qita" ("Bütöv çoxtərəfli haqda risalə), "Came'ül-hesab" ("Lövhə və tozun köməyi ilə hesab toplusu"), "Dairənin ölçüsü", "Təhrir Öqlidis" ("Evklid "Başlanğıc"ının təsviri") kimi kitablar xüsusi yer tutur. Dörd hissədən ibarət "Zici-İlxani" ("İlxanilərin astronomik cədvəlləri") əsəri isə alimin adını dünya astronomiya tarixinə salmışdır.

Çağdaş tədqiqatçıların bir çoxu Nəsirəddin Tusini hər şeydən öncə, riyaziyyatçı hesab edir. Onun əsərləri yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynamışdır. 1594-cü ildə Romada ərəb, sonra isə latın dilinə tərcümədə çap olunan "Evklid "Başlanğıc"ının təsviri" əsəri Tusi ideyalarının Avropada yayılmasında böyük iş görmüşdür. Alimin beş kitabdan ibarət yazdığı "Bütöv dördtərəfli haqqında risalə" də Avropada triqonometriyanın inkişafında əhəmiyyətli rol oynamış əsər kimi məşhurdur. Dünya elmi tarixində ilk dəfə bu əsərdə triqonometriyaya müstəqil elm sahəsi kimi yanaşılır. Bu risalə ingilis, rus və fransız dillərinə çevrilmişdir. Nəsirəddinin cəbr sahəsində araşdırmaları içərisində bütün dərəcələrdən kökalma metodu və Binom düsturu daha çox tanınır. Bundan başqa alimin tarixə, minerologiyaya, fizikaya, tibbə, iqtisada, coğrafiyaya, musiqiyə və təbii ki, astronomiyaya dair çoxsaylı əsərləri də diqqətə layiqdir. Bunların arasında "Bağdadın tarixi", "İşığın əks olunması və sınması haqda risalə", "Evklid optikası", "Göy qurşağının öyrənilməsinə dair risalə", "Qiymətli daşlar haqqında kitab", "Tibb qanunları", "Dövlət maliyyəsi haqqında risalə", "Xoşbəxt günlərin seçilməsi" (astrologiya) və başqa əsərlərin adı çəkilə bilər.

Ensiklopedik alim Nəsirəddin Tusinin bir çox əsərləri dünyanın müxtəlif kitabxanalarında mövcuddur. Bunlara Bakı, Paris, Berlin, Vyana, Oksford, Kembric, Leypsiq, Münhen, Florensiya, Qahirə, İstanbul, Moskva, Sankt-Peterburq, Kazan şəhərlərinin muzey və kitabxanalarında rast gəlmək mümkündür.

Tusi Şərq dünyasında etikaya dair "Əxlaqi-Nasiri" adlı məşhur əsəri ilə və Marağa rəsədxanasının banisi kimi xüsusi rəğbət qazanmışdır.

Görünür, o, rəsədxana qurmaq haqqında çoxdan fikirləşirmiş. Bağdad alınan kimi, Nəsirəddinin Hülaku xandan icazə istəyib, işə başlaması da bunu sübut edir. Bir ildən də az bir müddətdə o, rəsədxananın tikiləcəyi yeri müəyyənləşdirir, eyni zamanda astronomik cihazlar hazırlayır, müxtəlif şəhərlərdən burada yaradılacaq kitabxana üçün qiymətli kitablar gətirdir və rəsədxanada araşdırmalar aparmaqdan ötrü dünyanın bir çox ölkəsindən alimlər dəvət edir. Tusi özü "Zici-İlxani" adlı əsərində bu barədə belə yazır: "Hülaku xan ətraf vilayətlərdən astronomik müşahidələr apara bilən alimləri çağırmağı tələb etdi: Dəməşqdən Müvəidəddin Ordini, Mosuldan Fəxrəddin Marağayini, Tiflisdən Fəxrəddin İxlatini, Qəzvindən Nəcməddin Dəbiranini." Digər qaynaqlardan isə dövrün ən tanınmış alimlərindən Qütbəddin Şirazi, Şəmsəddin Şirvani, Cəmaləddin əz-Zeydi Buxari, Fao Mun-çi və digərlərinin də Marağa rəsədxanasında çalışdıqları mə'lum olur. Burada bir məsələyə də toxunmaq maraqlı olardı. Görkəmli Azərbaycan siyasi xadimi və tarixçisi Rəşidəddinin öz salnamələrində yazdığına görə həmin dövrdə Camaəddin Buxariyə də Pekində rəsədxana qurmaq tapşırılmışdı. Lakin o, bu tapşırığın öhdəsindən gələ bilmirdi. Nəhayət, Çin alimi Fao Mun-çi ilə birlikdə Marağaya gəlib, Nəsirəddinlə məsləhətləşmələr apardıqdan və rəsədxana tikilişi üçün zəruri olan alətlərin çertyojlarını əldə etdikdən sonra Pekində də işlər başa çatdırılır.

Rəsədxana yaradılması külli məbləğdə pul qoyuluşu tələb edirdi və Hülaku xan bu işi məqsədəuyğun saymırdı. Tanınmış tarixçi Hacı Xəlifə özünün "Dünya haqqında kitab"ında bununla əlaqədar baş verən hadisələri belə təsvir edir: "Xacə Nəsir Marağadakı astronomiya rəsədxanasının tikintisinə başlamaq üçün lazım gələn məsrəfi Hülakuya deyəndə, o, məbləğin böyüklüyünə şübhə ilə soruşdu: "Yəni, ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?" Nəsir cavabında söylədi: "İzn verin, bir nəfər həmin dağa qalxıb, ordan boş bir tası yerə atsın, ancaq bunu elə eləsin ki, heç kəs bilməsin." Belə də edirlər. Tas qayalara dəyə-dəyə qorxulu səslər çıxarır. Hülaku xanın ordusu vahiməyə düşür. Nəsirəddinsə bu zaman xanla birlikdə sakitcə oturub, qoşundakı vahiməni seyr edirdilər. Nəsirəddin xana deyir: "hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimizdən sakitcə əyləşmişik. Qoşun isə bunu bilmədiyi üçün həyəcan içindədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini irəlicədən bilsək, yer üzündə həmişə belə rahatlıq hökm sürər." Nəsirəddinin sözləri Hülaku xanı elə inandırır ki, o, rəsədxananın tikintisinə razılıq verir və bu məqsədlə 20 min dinar pul buraxır. Sonralar böyük alim rəsədxanada çalışan yüzdən artıq alimə həmişəlik donluq kəsilməsinə də nail olur. Bu məvacib Nəsirəddinin təşəbbüsü ilə vergilərdən yığılan vəsait hesabına ödənilirdi.

Rəsədxananın tikintisi 1259-cu ildə Marağa şəhərinin qərbindəki təpənin döşündə başlanır. Nəsirəddin rəsədxana binalarının layihələşdirilməsində və astronomik cihazların qurulmasında şəxsən iştirak edir. Görkəmli astronom və konstruktor Müəyyidəddin Ordi ilə birlikdə onlar rəsədxanada beş yeni, bir o qədər də köhnə konstruksiyalı astronomik cihaz quraşdırırlar. Yeni konstruksiyaları alimlərin özləri işləyib – hazırlayır. Bundan başqa Marağa rəsədxanasında bir sıra astronomik məsələlərin həlli üçün zəruri sayılan, həmçinin tədris məqsədilə istifadə olunan yer və göy qlobusları da hazırlanırdı. Ordinin oğlu Məhəmməd tərəfindən hazırlanmış göy qlobuslarından biri bizim günlərə qədər çatmış və hal-hazırda Drezdendə saxlanır.

Rəsədxananın nəzdində 400 min kitab saxlanan kitabxana və bu elmi mərkəzi kadrlarla təchiz etməkdən ötrü məktəb fəaliyyət göstərirdi. Maraqlı burasında idi ki, rəsədxanada Müsəlmanlarla birgə xristianlar, buddistlər, nestorianlar və iudaistlər də çalışırdı. Bunlar türklər, farslar, ərəblər, monqollar, çinlilər, gürcülər, tatarlar, yəhudilər və digər millətlərin nümayəndələri idilər. Tusinin tikdirdiyi rəsədxana öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyur. Marağa rəsədxanasında çalışan əməkdaşların elmi fəaliyyəti və astronomik müşahidələri "İlxanilərin astronomik cədvəlləri"



adlandırılan kollektiv əsərin yaranmasına gətirib çıxarmışdı. Bu cədvəllərin sonuncusu 1284-cü ildə, artıq Nəsirəddinin vəfatından sonra tərtib edilmişdi.

Cədvəllər dörd kitabdan ibarətdir. Birinci kitabda yunan, fars, yəhudi, ərəb və türk təqvimləri təsvir olunur və bir təqvimdən digərinə keçməyin qaydaları göstərilirdi. İkinci kitab ulduzların hərəkətinə və onların ekliptik koordinatlarının yerləşməsinə həsr olunub. Elə buradaca sinus və tangenslərin cədvəlləri, habelə 256 məntəqənin yerləşdiyi uzunluq və en dairəsi göstərilir. Nəsirəddin uzunluq dairəsinin ölçüsünü Qrinviçdən 34-35 dərəcə qərbdən götürərək, Cənubi Amerikanın şərq hissəsindən keçirir. Professor H. C. Məmmədbəyli buna əsaslanaraq, belə bir ehtimal irəli sürmüşdür ki, o dövrün astronom və coğrafiya mütəxəssisləri hələ Kolumbdan çox-çox qabaq Qərb yarımkürəsində sonralar Amerika adlandırılmış materikin varlığından xəbərdar imişlər. "Cədvəllər"in üçüncü və dördüncü kitabları astrologiya məsələlərinə həsr olunub.

AMEA-nın müxbir üzvü Zakir Məmmədov Nəsirəddin Tusinin irsini araşdırarkən mənbələr əsasında belə bir faktı qeyd edir ki, 1266-cı ildə Marağa rəsədxanasında N.Tusi ilə bir yerdə çalışan azərbaycanlı mühəndis Kəriməddin Əbubəkr Mahmud oğlu Səlmasinin düzəltdiyi cihazlar arasında içiboş yer kürəsi modeli də varmış. Üzərində iqlimlərin təsviri verilmiş bu fiqur coğrafi qlobus idi. Bununla da Zakir Məmmədov elm aləmində ilk coğrafi qlobusun alman alimi Martin Böhaymın (1459-1507) hazırlaması haqqında fikri elmi fakt əsasında təkzib etmişdir.

Marağa rəsədxanası tətbiqi astronomiyanın inkişafında müstəsna rol oynayıb.

Nəsirəddin Tusi dünyasını 1274-cü ildə 25 İyunda (18 zülhiccə 672-ci il) Bağdadda dəyişmiş və orada "Came məscidi"ndə torpağa tapşırılmışdır.

Nəsirəddin Tusinin davamçıları

Nəsirəddin Tusinin üç oğlu olmuşdur: Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd. Onlar filosofun yaradıcılıq yolunu davam etdirmişlər. Nəsirəddin Tusinin ölümündən sonra Sədrəddin Əli Marağa rəsədxanasına rəhbərlik etmişdir. Mənbələrdə deyildiyi kimi, o, farsca şeirdə və astronomiyada fəzilətli idi.

Əsiləddin Həsən riyaziyyatçı və şair kimi tanınırdı. Professor Həbibulla Məmmədbəyli qeyd edir ki, Parisdə milli kitabxanada saxlanılan "Zic-i İlxani"nin bir nüsxəsi Əsiləddin Həsənin əlyazmasıdır.

Əsiləddin Həsən həm elmi fəaliyyət göstərmiş, həm də dövlət işlərində çalışmışdır. Vali işləmiş Əsiləddin Həsən Qazan xan ilə Şama getmiş, sonra Bağdadda mənsəb tutmuşdur. Nəsirəddin Tusinin kiçik oğlu Fəxrəddin Əbülqasim Əhməd riyaziyyatçı, astronom olmuş, vəqflərin müdiri işləmişdir.Fəxrəddin Əhməd Abaqa xanın oğlu Arqun xan zamanında xidmət etmiş, 27 avqust 1301-ci (21 zülhiccə 700) ildə Sivasda öldürülmüşdür. Cənazə Marağaya gətirilib, qardaşının yanında dəfn olunmuşdur.

Mənbələrdə qeyd edilir ki, Əhvədi Marağayi "Dəhnamə" məsnəvisini Nəsirəddin Tusinin nəvəsi Xacə Ziyaəddin Yusif ibn Əsiləddin Həsənin adına 1306-cı (706) ildə nəzmə çəkmişdir. Lakin onun hansı ixtisas sahibi olması, nə kimi mövqe tutması məlum deyildir.

Nəsirəddin Tusi Marağa rəsədxanasının nəzdində təsis etdiyi məktəbdə özünün davamçılarını hazırlamışdır. Mütəfəkkirin fəlsəfi məktəbinin görkəmli nümayəndələri arasında Nəcməddin Qəzvini (1203-1277), Qütbəddin Şirazi (1236-1311), Cəmaləddin Hilli (1250-1325) daha çox məşhurdur. Onlar da müəllimlərinin fəlsəfi mövqeyindən çıxış etmişlər.

Nəsirəddin Tusinin şagirdlərindən Nəcməddin Qəzvini, Qütbəddin Şirazi, Cəmaləddin Hilli və başqaları öz məktəblərini yaradaraq şagirdlərini, xələflərini yetirmişlər. Bununla da Bəhmənyar məktəbinin fəlsəfi ənənələri Nəsirəddin Tusinin fəlsəfi məktəbi və şagirdlərinin fəlsəfi məktəbinin nümayəndələri tərəfindən davam etdirilmişdir.

XIV əsrdə Nəsirəddinin nəvə-nəticələri Marağadan Ordubada köçmüşlər. Səfəvilər dövründə onlar bir sıra dövlət vəzifələrində çalışmışlar. Hal-hazırda Azərbaycan Respublikasında və İran İslam Respublikasında Nəsirəddin Tusinin çox sayda varisləri yaşamaqdadır.

Əsərləri

Əsər cəmi 101 ədətdir.

Şərh əl-İşârat (bu fəlsəfə kitabı, 20 ildə hazırlanmışdır);
Zic-i İlxânî (astronomiya haqqında);
Təcrid əl-əqâid (kəlam kitabı);
Tezker-i hayat;
Təhrir-i Uqlidis;
Təhrir əl-Məcəstî;
Əsas əl-iqtibas (Məntiq kitabı);
Əsraf əl-eşraf;
Əxlaq-i Nâsirî;
Füsul nəsiriyyə.

# ALLAHA TƏVƏKKÜL

وَتَوَكَّلْ عَلَى اللَّهِ وَكَفَى بِاللَّهِ وَكِيلًا

***Allah-taala təvəkkül haqqında buyurur: "Əgər möminsinizsə, Allaha təvəkkül edin!"***

"Təvəkkül", işi kiminsə öhdəsinə qoymaq mənasındadır. Burada bəndənin (Allaha) təvəkkülü nəzərdə tutulur. Bəndənin Allaha təvəkkül etməsi o deməkdir ki, bəndə gördüyü bir işi və ya qarşısına çıxan bir işi – Allahı özündən daha bilikli və bacarıqlı bildiyi üçün – Allaha tapşırır ki, əgər Allahın təqdiri olsa həmin işi düzəldəcək və bəndə Allahın təqdir etdiyi hər bir şeyə qane və razı olsun: "Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir..."

Allahın təqdir etdiyi işə insanın qane və razı olması belə hasil olur ki, insan öz əvvəlki halı barəsində düşünsün ki, (Allah) onu əvvəl heçdən yaratdı və onun yaradılışında neçə-neçə hikmət qərar verdi ki, insan bütün ömrü boyu onun mində birini dərk edə bilməz, (sonra) onu boya-başa, ərsəyə çatdırdı, həyatını davam etdirə və nöqsandan kamala çata bilməsi üçün onu daxildən və xaricdən təchiz etdi və bu işi təmənnasız gördü.

Məsləhətə uyğun onu boya-başa çatdırdı ki, bilsin ki, gələcəkdə (onun üçün lazım olacaq) hər şeyi hazır edəcəkdir və Onun təqdirindən və iradəsindən kənarda olmayacaqdır. Beləliklə, Allaha etimad edəcək və onda iztirab və nigarançılıqdan əsər – əlamət qalmayacaq. Onda yəqin hasil olacaq ki, istər iztirabı olsun, istərsə də olmasın, Allah-taala onun görməli olduğu işi Özü əncam verəcəkdir. Ona görə də buyurur: "Əgər bir kəs hər şeydən üz döndərib Allaha üz tutsa, Allah-taala onun bütün həyat ehtiyaclarını təmin edər və ona, gümanı gəlmədiyi yerdən ruzi yetirər."

Təvəkkül o demək deyil ki, insan bütün işlərdən əl çəksin, desin ki, Allaha tapşırdım. Təvəkkül o deməkdir ki, (insan) Allahdan qeyri hər bir şeyin Allah tərəfindən olduğuna yəqin əldə edəndən sonra (bilsin ki,) aləmdə baş verən əksər işlər şərtlər və səbəblər əsasında hasil olur, çünki Allahın qüdrət və iradəsi bəzi işlərə aid olur, bəzi işlərə isə aid olmur. Qəti şəkildə (Allahın qüdrət və iradəsi) xüsusi şərtlər və amillər əsasında bir şeyə aidiyyət tapır, deməli insan özünü, öz elm və qüdrətini cümlə səbəblər və şərtlərdən bilməlidir ki, bəzi işlərin məxsus icadı (üçün hazır) olsun, hansı ki, insan o işləri özünə nisbət verir.

Buna görə də bu cür işlərdə – hansı ki, insanın iradə və qüdrəti də onun vücuda gəlməsinin şərtləri və səbəbləri sırasındadır – çalışqan olmalıdır. Eynən o kəs kimi ki, həmin adamın vasitəsilə onun məhbubunun sevdiyi işlər hasil olur. Elə ki, vəziyyət belə oldu, cəbr və qədərin cəmi və ittihadı qarşıya çıxır, çünki, o işi əgər məhbuba nisbət versə, (bu işin) cəbr olduğu xəyala gəlir, əgər şərtlərə və səbəblərə nisbət versə, (bu işin) qədər olduğu sanılır. Amma, əgər diqqətlə araşdırılsa, nə mütləq cəbr, nə də mütləq qədər olur. Bu həmin (İmam Sadiq (ə) söylədiyi) kəlamdır ki, demişlər: "Nə cəbrdir, nə də qədər, məsələ bu ikisinin arasında olandır."

Deməli insan özünü (onun) özünə aid olan işlərdə qüdrət sahibi bilməlidir. Əlbəttə bu qüdrətini vasitə və alətlərdə dəxaləti olan fail kimi yox, vasitə və alət timsalında görməlidir.

Həqiqətdə, biri failə aid olan, digəri vasitəyə aid olan o iki etibar müttəhid olurlar və hər ikisi faildən qaynaqlanırlar və eyni halda vasitənin rolu da nəzərdə tutulur.

Əlbəttə bu olduqca dəqiq bir məsələdir və təfəkkür qüvvəsini yetərincə çalışdırmadan onu həll etmək olmaz.

Kim bu mərtəbəyə çatmış olsa, yəqin olaraq bilir ki, bütün mövcudatın təqdiri Allahın əlindədir və baş verəcək hər bir işi xüsusi vaxtda, xüsusi şərait, alətlər və səbəblərlə icad edir. Ona görə də mətləbə çatmaqda tələsikliyi və ya onun dəf olmasında ləngiməyi təsirli bilmir, özünü də vasitələrdən, səbəb və şərtlərdən biri kimi görür. Beləliklə, dünya işlərinə ürək bağlamaqdan xilas olur və özünə aid olan işlərdə ciddi səy göstərir. Həqiqətdə bu mənanı təsəvvür edir: "(Ya Peyğəmbər!) Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?"

Belə olan halda həmin adam mütəvəkkillər sırasında yer tutar. Bu ayə onun və onun kimiləri haqqında nazil olmuşdur: "...Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah (Ona) təvəkkül edənləri sevər!"

Nəsirəddin Tusi

# KROSSVORD

**Aşağı**
1. Amin
2 .Peyğəmbər
4. 12 məsum
5. Qiblə
6. Sizin İnama və saleh əmələ səsləyən aylıq qəzetiniz

**Eninə**
1.İslam
3.Şəhidlər ağası



**Aşağı**
2.Hündür
4. Çətin
5. Ulul-əzm peyğəmbəri
9. Surə
11. Millət
12. Şeytan

**Eninə**
1.8-ci İmam
3. Namaza çağırış
6. Can
7. Quranda 114 say
8. Razı-niyaz
10. Ramazan
13. Ərəb hərfi



**Aşağı**
1. 5-cı İmam
3. Mələk
4. Haram içki
5. Suda quru

**Eninə**
2. Bədii janr
3. Müqəddəs ruh
5. Üsyankar



# Sizə bir məktub var

*Yumurtanızı necə yeyirsiniz?*
*Qayqanağmı olsun?*
*Qəhvənizi südlümü istəyirsiniz, yoxsa sadəmi?*
*Süfrənizdə qızartma olmasa əsəbləşərdinizmi?*
*Üç növ yeməkdən sonra şirniyyat istəyərdiniz hərhalda?*
*Aman haa farfor qablarınıza diqqət edin…*
*Sonra qırılsa nə edərsiniz? Amma doğurdan da.. siz nə anlayarsınız yoxluqdan və sıxıntıdan..*
*Sizə bir məktub var! Zibildən çörək yığanlardan.*



*Hansı kollecin məzunu olmaq istəyərsiniz?*
*Atanız ananız sizə hansı marka kompüter alsın?*
*O biri sinifə keçsəniz kameralı mobil telefonumu istəyirsiniz?*
*Aman ha məktəbinizdəki balet kursuna davam edin..*
*Kollec formalarınız neçə növ olsun?*
*Məktəb avtobusunuz gec gəlsə hirslənərdinizmi? Amma doğurdan da.. Siz nə anlayarsınız , şam işığıyla səhər açanlardan..*
*Sizə bir məktub var! Yoxsulluqdan məktəbə gedə bilməyib, divarlarda yazı yazanlardan..*



*Bu gün hansı mağazanı gəzmək istəyərdiniz?*
*Vitrindəki paltarlardan neçə dənəsini alacaqsınız?*
*Ayaqqabınızla çantanız eyni rəng olmalıdır elə deyilmi?*
*Yoxsa sizə gülərlərmi eyni paltarı hər gün geyinsəniz?*
*Aman ha axşamkı serialı unutmayın.*
*Yoxsa sabah nə danışarsınız rəfiqələrinizlə? Amma doğurdan da.. siz nə anlayarsınız bir yamağı üçə bölənlərdən?*
*Sizə bir məktub var! Qış günü paltarsız ölənlərdən..*



İMAN

www.iman.ge www.imanmedia.ge

# AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 6:15 | 7:37 | 13:13 | 18:50 | 19:07 | 00:40 |
| 02 | 6:13 | 7:35 | 13:13 | 18:52 | 19:09 | 00:40 |
| 03 | 6:12 | 7:34 | 13:13 | 18:53 | 19:10 | 00:40 |
| 04 | 6:10 | 7:32 | 13:13 | 18:54 | 19:11 | 00:40 |
| 05 | 6:09 | 7:30 | 13:12 | 18:55 | 19:12 | 00:40 |
| 06 | 6:07 | 7:29 | 13:12 | 18:56 | 19:13 | 00:39 |
| 07 | 6:05 | 7:27 | 13:12 | 18:57 | 19:14 | 00:39 |
| 08 | 6:04 | 7:25 | 13:12 | 18:59 | 19:16 | 00:39 |
| 09 | 6:02 | 7:24 | 13:11 | 19:00 | 19:17 | 00:39 |
| 10 | 6:01 | 7:22 | 13:11 | 19:01 | 19:18 | 00:38 |
| 11 | 5:59 | 7:21 | 13:11 | 19:02 | 19:19 | 00:38 |
| 12 | 5:57 | 7:19 | 13:11 | 19:03 | 19:20 | 00:38 |
| 13 | 5:55 | 7:17 | 13:10 | 19:04 | 19:21 | 00:37 |
| 14 | 5:54 | 7:15 | 13:10 | 19:05 | 19:22 | 00:37 |
| 15 | 5:52 | 7:14 | 13:10 | 19:07 | 19:23 | 00:37 |
| 16 | 5:50 | 7:12 | 13:10 | 19:08 | 19:25 | 00:36 |
| 17 | 5:48 | 7:10 | 13:09 | 19:09 | 19:26 | 00:36 |
| 18 | 5:47 | 7:09 | 13:09 | 19:10 | 19:27 | 00:36 |
| 19 | 5:45 | 7:07 | 13:09 | 19:11 | 19:28 | 00:35 |
| 20 | 5:43 | 7:05 | 13:08 | 19:12 | 19:29 | 00:35 |
| 21 | 5:41 | 7:04 | 13:08 | 19:13 | 19:30 | 00:35 |
| 22 | 5:39 | 7:02 | 13:08 | 19:14 | 19:31 | 00:34 |
| 23 | 5:38 | 7:00 | 13:07 | 19:15 | 19:32 | 00:34 |
| 24 | 5:36 | 6:58 | 13:07 | 19:17 | 19:34 | 00:34 |
| 25 | 5:34 | 6:57 | 13:07 | 19:18 | 19:35 | 00:33 |
| 26 | 5:32 | 6:55 | 13:07 | 19:19 | 19:36 | 00:33 |
| 27 | 5:30 | 6:53 | 13:06 | 19:20 | 19:37 | 00:33 |
| 28 | 5:28 | 6:52 | 13:06 | 19:21 | 19:38 | 00:32 |
| 29 | 5:26 | 6:50 | 13:06 | 19:22 | 19:39 | 00:32 |
| 30 | 5:25 | 6:48 | 13:05 | 19:23 | 19:40 | 00:31 |
| 31 | 5:23 | 6:47 | 13:05 | 19:24 | 19:41 | 00:31 |

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Tel: (822) 23 39 87*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*